# Hüquqşünasın yaddaş kitabçası

Bakı 2006

**Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI **(çıxarış)**

"1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildikdən sonra ardıcıl surətdə aparılan məhkəmə islahatının əsas məqsədi ölkəmizdə qanunun aliliyinin təmin edilməsi, məhkəmə hakimiyyətinin dövlət mexanizmində nüfuzlu və müstəqil bir təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin təmin edilməsi, cinayət və mülki mühakimədə demokratik prinsiplərin həyata keçirilməsi, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətinin şəffaflığının təmin edilməsi və sair məsələlərin konseptual həlli olmuşdur."

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 yanvar 2006-cı il

## Giris sözü

**Müstəqil Azərbaycan Respublikası yaşayacaq və demokratiya prinsipləri, insan azadlığı, demokratik iqtisadiyyat sahəsində başqa dövlətlər üçün nümunə olacaqdır.**

***Heydər Əliyev***

Hüquqşünasın Yaddaş Kitabçası cinayət prosesləri və müvafiq dinləmələr zamanı istifadə olunan yığcam istinad vasitəsidir. Bu kitab Azərbaycan məhkəmə zallarında istifadə olunmalı və qanunun aliliyinin əsas prinsiplərini əhatə edir. Bura Azərbaycan Konstitusiyasının əsas müddəaları, insan hüquqlari üzrə Avropa Konvensiyasının seçilmiş maddələri, Azərbaycan Cinayət Prosessual məcəlləsinindən seçilmiş hissələr, zaminlik, seçilmiş sübutetmə və professional/etik standartlar, məhkəmə etirazları, İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinə şikayət modeli, cinayət növlərini əhatə edən cədvəl və yüngülləşdirici halları cəmləşdirən müddəalar daxildir.

Kitabça yığcam istinad vasitəsidir. Azərbaycan bu yaxınlarda millətlərin demokratik birliyinə qoşulmuş və dünyada çox mükəmməl, insan hüquqlarina əsaslanmış və Heydər Əliyev irsi sayılan Konstitusiyası və Cinayət Prosesual Məcəlləsi olan müstəsna mövqeyə

malikdir. Yeni olan bütün digər sənədlər kimi, bu da həddən artıq az istifadə olunur. Keçmiş Sovet üsulları da saxlanılmaqdadır, məsələn, köhnəlmiş "Protokol" üsulu. Bu problemlər tədricən aradan qalxacaq və Konstitusiyada əks olunan hüquqlar tam şəkildə bərqərar olub və yeni təlimləşdirilmiş hakimlər tərəfindən istifadə ediləcək.

Hakimlərə xatırlamalıdılar ki, onların vəzifəsi sadəcə protokolu təsdiqləmək deyil, faktların qanunla uyğunluğunu qərara almaqdır. Həmçinin onlar vəkillərə öz işlərini görmək üçün şərait yaratmalı və ittiham tərəfini dəstəkləyən suallar verməməli. Bu kitab həmin prinsiplər külliyatını həyata keçirmək üçün bələdçi rolunu oynayacaq.

Hüquqi Yardım Klinikasının üzvü Jonathan Greenblatt-a, Mahir Müşteidzadəyə və xüsusilə də, həmin klinikanın müdafiəçiləri Judy Clarke və Speedy Rice-a xüsusi təşəkkür olunur.

Maykl Roak
Cinayət Hüququ Proqramı,
Amerika Hüquqşünaslar Assosiasiyası (ABA/CEELİ)



# MÜNDƏRİCAT:

**GİRİŞ SÖZÜ** ........................................................................3

**KONSTİTUSİYA VƏ CİNAYƏT PROSESUAL MƏCƏLLƏSİNİN ÜMUMİ PRİNSİPLƏRİ** ........................................................7
- o Hər kəsin ədalət mühakiməsinə hüququ
- o Hüququn mənbəyi/insan hüquqlari üzrə avropa konvensiyasi və digər konvensiyalara tətbiqi
- o Çəkişmə sistemi/ sübutetmə ardicıllığı
- o Təqsirsizlik prezumpsiyası
- o Susmaq hüququ
- o Müdafiə hüququ
- o Məhkəmə qərəzsizliyi

**SÜBUT VƏ DƏLİLLLƏR** .................................................21
- o İşə dair dəlillər
- o Yalnız etibarlı sübut və dəlillər
- o Etirazlar
- o İstisna qayda
- o Şahidlər
- o Ekspert rəyi

**CİNAYƏT PROSESİNİN ƏSAS QAYDALARİ**
- • **MƏHKƏMƏDƏN ƏVVƏL:** ....................................31
  - o Təqsirləndirilən şəxsin hüquqları
  - o Axtarış və həbs
  - o Zaminlik
- • **MƏHKƏMƏ PROSESİ** ...........................................42
  - o Sübutetmə vəzifəsi

o Sübutetmə ardıcıllığı
o Hakimin rolu
o Vəkilin mövqeyi
o İttiham/müdafiə tərəflərin rolu

• **MƏHKƏMƏDƏN SONRA**: ....................................56
o Yazılı qərar
o Avtomatik appelyasiya hüququ/sənədləşdirmə qaydası

**ƏLAVƏ** ..............................................................................66
o Etiraz barədə məlumat sənədi
o Etika Məcəlləsi (Hakimlər və Prokurorlar üçün, Maddə 310)
o Gələcək Vəsatətlər
o Yüngülləşdirici Hallar
o İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə Şikayət Modeli



**Bu gün ən mühüm vəzifə konstitusiyanı daha dərindən mənimsəmək və onun verdiyi təminatlardan bəhrələnməkdən ibarətdir.**

***Heydər Əliyev***

## ÜMUMİ PRİNSİPLƏR: AZƏRBAYCAN KONSTİTUSİYASİ (AK) / CİNAYƏT PROSESUAL MƏCƏLLƏSİ (CPM)

### ƏDALƏT MÜHAKİMƏSİ HÜQUQU

**AK Maddə 60. Hüqüq və azadlıqların məhkəmə təminatı**

I. Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir.
II. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.

**AK Maddə 61. Hüquqi yardım almaq hüququ**

I. Hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.
II. Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.
III. Hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

CPM Maddə 19. **Hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi**

19.1. Cinayət təqibi gedişində təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxslərin keyfiyyətli hüquqi yardım almaq hüququnu təmin etmək üçün tədbirlər görməlidir.

19.2. Cinayət prosesini həyata keçirən orqan, zərər çəkmiş şəxs (xüsusi ittihamçı), mülki iddiaçı və ya onun qanuni nümayəndəsi, şübhəli, yaxud təqsirləndirilən şəxsin qanuni nümayəndəsi, habelə mülki cavabdeh cinayət, prosesi gedişində özlərinin dəvət etdiyi nümayəndənin hüquqi yardımından istifadə etmək hüququnu gözləməlidir.

19.3. Zərər çəkmiş şəxsin və ya şahidin dindirilməsi zamanı cinayət prosesini həyata keçirən orqanın həmin şəxslərin nümayəndə qismində dəvət etdikləri vəkilin onların yanında olmasını qadağan etməyə hüququ yoxdur.

19.4. Cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin bu məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı hüquqlarını təmin etməlidir:

19.4.1. tutulduğu, həbsə alındığı və ya müvafiq olaraq şübhəli şəxs qismində birinci dindirməyədək, yaxud təqsirləndirilən şəxsə ittiham elan edildiyi andan müdafiəçinin yardımından istifadə etmək;

19.4.2. hüquqlarını izah etmək;

19.4.3. öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxt vermək və imkan yaratmaq;

19.4.4. şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə müdafiə olunmaq, yaxud müdafiəçinin haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, pulsuz hüquqi yardım almaq;

19.4.5. onun əleyhinə ifadə vermiş şahidləri məhkəmə istintaqı zamanı dindirmək. 1[5]

19.5. Cinayət prosesini həyata keçirən orqan bu Məcəllə ilə müəyyən edilmiş hallarda şübhəli və ya təqsirləndirilən şəxsin qanuni nümayəndəsini işə cəlb etməlidir.

19.6. Cinayət prosesində şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçisinin və qanuni nümayəndəsinin iştirak etməsi bu şübhəli və ya təqsirləndirilən şəxsin hüquqlarını məhdudlaşdıra bilməz.

19.7. Şübhəli və ya təqsirləndirilən şəxs ifadə verməyə, cinayət prosesini həyata keçirən orqana hər hansı materiallar təqdim etməyə və onlara hər hansı yardım göstərməyə məcbur edilə bilməz.

## Qanunvericilik mənbələri/ Beynəlxalq normalar

CPM Maddə 2. **Cinayət-prosessual qanunvericiliyin mənbələri**

2.1. Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi aşağıdakılardan ibarətdir:

2.1.1. Azərbaycan Respublikasının Konstitusiyasından;

2.1.2. bu Məcəllədən;

2.1.3. Azərbaycan Respublikasının digər qanunlarından;

2.1.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən.

2.2. Azərbaycan Respublikası Konstitusiyasının normaları Azərbaycan Respublikasının bütün ərazisində ali hüquqi qüvvəyə malikdir və birbaşa qüvvədədir. Azərbaycan Respublikası Konstitusiyasının normaları ilə bu Məcəllənin müddəaları arasında ziddiyyət olduqda Azərbaycan Respublikası Konstitusiyasının normaları tətbiq olunur.

2.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu Məcəllədən fərqli digər qaydalar müəyyən olunduqda, beynəlxalq müqavilənin qaydaları tətbiq edilir.

2.4. Cinayət-prosessual fəaliyyət daxilində insan və vətəndaş hüquq və azadlıqlarını ləğv edən və ya məhdudlaşdıran, hakimlərin müstəqilliyini və ədalət mühakiməsinin həyata keçirilməsində çəkişmə prinsipini pozan, əvvəlcədən sübutlara müəyyən hüquqi qüvvə verən normativ hüquqi aktlar tətbiq edilə bilməz. Digər qanunlardakı prosessual hüquq normaları bu Məcəllənin müddəalarına uyğunlaşdırılmalıdır.



CPM Maddə 10. **Qanunçuluq**

10.1. Məhkəmələr və cinayət prosesinin iştirakçıları Azərbaycan Respublikası Konstitusiyasının, bu Məcəllənin, Azərbaycan Respublikasının digər qanunlarının, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına ciddi əməl etməlidirlər.

10.2. Azərbaycan Respublikasının qüvvəyə minmiş və dərc edilmiş qanunu ilə müəyyən olunan əsaslardan və qaydalardan kənar heç kəsin cinayət təqibi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilməsinə, tutulmasına, həbsə alınmasına, axtarılmasına, məcburi gətirilməsinə və digər prosessual məcburiyyət tədbirlərinə məruz qalmasına, habelə məhkum edilməsinə, cəzalandırılmasına, hüquq və azadlıqlarının digər formada məhdudlaşdırılmasına yol verilmir.

10.3. Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunlarının təfsiri cinayət prosesi iştirakçılarına o halda məcburidir ki, bu təfsir Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin qərarında verilmiş olsun.

10.4. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahları cinayət prosesini həyata keçirən orqanlar üçün tövsiyə xarakteri daşıyır.

10.5. Qanunun bu maddəsində göstərilən tələblərin pozulması ilə aparılan prosessual hərəkətlərin və qəbul olunmuş qərarların hüquqi qüvvəsi yoxdur.

**AK Maddə 127. Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri**

I. Hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər.
II. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar.
III. Hər hansı bir şəxs tərəfindən və hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanuna zidd təsir, hədə və müdaxilə edilməsi yolverilməzdir.
IV. Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir.
V. Bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır. İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, məhkəmə açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir, ya da vətəndaşların şəxsi və ya ailə həyatının məxfiliyini qorumaq zərurətinin mövcudluğunu müəyyən edir.
VI. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, cinayət işlərinin qiyabi məhkəmə icraatına yol verilmir.
VII. Məhkəmə icraatı çəkişmə prinsipi əsasında həyata keçirilir.
VIII. Məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə hüququ təmin olunur.
IX. Ədalət mühakiməsi təqsirsizlik prezumpsiyasına əsaslanır.
X. Azərbaycan Respublikasında məhkəmə icraatı Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq yerin əhalisinin çoxluq təşkil edən hissəsinin dilində aparılır. İşin iştirakçısı olub məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərin işin materialları ilə tam tanış olmaq, məhkəmədə tərcüməçi vasitəsi ilə iştirak etmək və məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilir.



CPM Maddə 12. **Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması**

12.3. Cinayət prosesi gedişində hər kəsin özünün Konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarını qanunla qadağan edilməyən bütün üsul və vasitələrlə müdafiə etməyə hüququ vardır.

CPM Maddə 32. **Cinayət prosesində tərəflərin çəkişməsi**

32.1. Azərbaycan Respublikasında cinayət mühakimə icraatı ittiham və müdafiə tərəfinin çəkişməsi əsasında həyata keçirilir.

32.2. Bu Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət prosesində tərəflərin çəkişməsini təmin etmək məqsədi ilə:

32.2.1. hər bir tərəf məhkəmədə təmsil olunur;

32.2.2. hər bir tərəf məhkəmədə öz mövqeyini müdafiə etmək üçün bərabər hüquqlara və imkanlara malikdir;

32.2.3. ittiham tərəfi cinayət hadisəsinin baş verməsini, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin əlamətlərinin mövcudluğunu, bu əməlin törədilməsinə təqsirləndirilən şəxsin aidiyyətini, cinayəti törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb olunmasının mümkünlüyünü sübut edir, təqsirləndirilən şəxsin əməlinin hüquqi tövsifinə və məhkəmənin yekun qərarına dair öz təkliflərini verir;

32.2.4. müdafiə tərəfi cinayət təqibi ilə bağlı irəli sürü-

müş ittihamı təkzib edir və ya cinayət prosesini həyata keçirən orqanın diqqətini təqsirləndirilən şəxsin cinayət məsuliyyətindən azad edilməsinə və ya cinayət məsuliyyətini yüngülləşdirən halların mövcudluğuna cəlb edir və təqsirləndirilən şəxsin əməlinin hüquqi tövsifinə və məhkəmənin yekun qərarına dair öz təkliflərini verir;

32.2.5. hər bir tərəf heç kimdən asılı olmayaraq müstəqil surətdə öz mövqeyini seçir və onu müdafiə etmək üçün vasitə və üsullarını müəyyən edir;

32.2.6. məhkəmə cinayət prosesi tərəflərindən hər birinin vəsatəti ilə əlavə olaraq zəruri materialların əldə edilməsinə kömək göstərir;

32.2.7. məhkəmə tərəfindən hökm yalnız cinayət prosesi tərəflərinin iştirakı bərabər əsaslarla təmin edilməklə tədqiq olunmuş sübutlarla əsaslandırılır;

CPM Maddə 138. **Sübutetmənin anlayışı**

138.1. Sübutetmə ittihamın qanuni, əsaslı və ədalətli həlli üçün əhəmiyyət kəsb edən halların müəyyən edilməsi məqsədi ilə sübutların əldə edilməsindən, yoxlanılmasından və qiymətləndirilməsindən ibarətdir.

138.2. Təqsirləndirilən şəxsin cinayət məsuliyyətinə cəlb olunması əsaslarını və onun təqsirli olub-olmamasını sübutetmə vəzifəsi ittihamçının üzərinə düşür.



# Təqsirsizlik prezumpsiyası

**AK Maddə 63. Təqsirsizlik prezumpsiyası**

I. Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır.
II. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir.
III. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.
IV. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz.
V. Məhkəmənin hökmü olmasa kimsə cinayətdə təqsirli sayıla bilməz.

CPM Maddə 21. **Təqsirsizlik prezumpsiyası**

21.1. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs onun təqsiri bu Məcəllədə nəzərdə tutulmuş qaydada sübuta yetirilməyibsə və bu barədə qanuni qüvvəyə minmiş məhkəmənin hökmü yoxdursa, təqsirsiz sayılır.

21.2. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa da onun təqsirli bilinməsinə yol verilmir. Bu Məcəllənin müddəalarına uyğun surətdə müvafiq hüquqi prosedur daxilində ittihamın sübuta yetirilməsində aradan qaldırılması mümkün olmayan şübhələr təqsirləndirilən şəxsin (şübhəli şəxsin) xeyrinə həll edilir. Eyni ilə cinayət və cinayət-prosessual qanunlarının tətbiqində aradan qaldırılmamış şübhələr də onun

xeyrinə həll olunmalıdır.

21.3. Cinayət törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsiz olmasını sübuta yetirməyə borclu deyildir. İttihamı sübuta yetirmək, şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi üçün irəli sürülən dəlilləri təkzib etmək vəzifəsi ittiham tərəfinin üzərinə düşür.

**İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya**

**Maddə 6. Ədalətli məhkəmə araşdırması hüququ**

2. Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir.



## Susmaq və özünəqarşı ifadə verməmək hüququ

**AK Maddə 66. Qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi**

Heç kəs özünə, arvadına (ərinə), övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilə bilməz. Əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı qanunla müəyyən edilir.

**AK Maddə 66. Qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol verilməməsi**

Heç kəs özünə, arvadına (ərinə), övladlarına, valideynlərinə, qardaşına, bacısına qarşı ifadə verməyə məcbur edilə bilməz. Əleyhinə ifadə verilməsi məcburi olmayan qohumların tam siyahısı qanunla müəyyən edilir.

**AK Maddə 67. Tutulan, həbsə alınan və cinayət törədilməsində ittiham edilənlərin hüquqları**

Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində ittiham etdiyi hər bir şəxsə dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir.

CPM Maddə 20. **Özünü və qohumlarını ifşa etməkdə sərbəstlik**

20.1. Heç kəs şəxsən özünün və yaxın qohumlarının əleyhinə ifadə verməyə məcbur edilə bilməz və buna görə hər hansı təqibə məruz qala bilməz.

20.2. İbtidai araşdırma və ya məhkəmə baxışı zamanı özünü, yaxud yaxın qohumlarını cinayət törətməkdə ifşa edən məlumatları verməsi təklif olunan şəxs bunun özü üçün hər hansı mənfi hüquqi nəticə verə biləcəyindən qorxmadan ifadə verməkdən imtina etməyə haqlıdır.

CPM Maddə 233. **Təqsirləndirilən şəxsin dindirilməsi**

233.11. Dindirmə zamanı təqsirləndirilən şəxsin susması onun özünü təqsirli bilməsi kimi qiymətləndirilə bilməz. Müstəntiq təqsirləndirilən şəxsə ona elan edilmiş ittiham üzrə və özünün mülahizələrinə görə cinayət işi üçün əhəmiyyətli olan digər hallar üzrə ifadələr verməyi təklif edir.

## Qarşı tərəfi sual cavab etmək hüququ

CPM Maddə 12. **Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması**

12.3. Cinayət prosesi gedişində hər kəsin özünün Konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarını qanunla qadağan edilməyən bütün üsul və vasitələrlə müdafiə etməyə hüququ vardır.

## İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya

**Maddə 6.3 Ədalətli məhkəmə araşdırması hüququ**

d) onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsi hüququna malik olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlər çağırılması və dindirilməsi hüququna malik olmaq;



## Məhkəmənin bitərəfliyi

CPM Maddə 2. **Cinayət-prosessual qanunvericiliyin mənbələri**

2.4. Cinayət-prosessual fəaliyyət daxilində insan və vətəndaş hüquq və azadlıqlarını ləğv edən və ya məhdudlaşdıran, hakimlərin müstəqilliyini və ədalət mühakiməsinin həyata keçirilməsində çəkişmə prinsipini pozan, əvvəlcədən sübutlara müəyyən hüquqi qüvvə verən normativ hüquqi aktlar tətbiq edilə bilməz. Digər qanunlardakı prosessual hüquq normaları bu Məcəllənin müddəalarına uyğunlaşdırılmalıdır.

CPM Maddə 25. **Hakimlərin və andlı iclasçıların müstəqilliyi**

25.1. Hakimlər və andlı iclasçılar müstəqildirlər və yalnız Azərbaycan Respublikası qanunlarının tələblərinə tabedirlər.

25.2. Hakimlər və andlı iclasçılar cinayət prosesini həyata keçirən orqanların ibtidai araşdırmada gəldikləri nəticələrlə bağlı deyillər.

25.3. Hakimlər və andlı iclasçılar cinayət işlərini və ya cinayət təqibi ilə bağlı digər materialları məhkəmə iclasında cinayət prosesi tərəflərinin təqdim etdikləri sübutların tədqiqinə əsaslanan öz daxili inamı və hüquq düşüncəsi ilə həll edirlər.

25.4. Azərbaycan Respublikasının məhkəmələri ədalət mühakiməsini hakimlərin və andlı iclasçıların müstəqilliyinə və iradəsinə qanunsuz təsiri istisna edən şəraitdə həyata keçirirlər.

25.5. Heç kəsin ədalət mühakiməsinin həyata keçirilməsinə müdaxilə etməyə, hakimlərdən, andlı iclasçılardan onların baxdığı, yaxud icraatlarında olan cinayət işləri və ya cinayət təqibi ilə bağlı digər materialların mahiyyəti üzrə izahat tələb etməyə hüququ yoxdur.

25.6. Hər hansı şəxs tərəfindən hər hansı səbəbdən əda-

lət mühakiməsinin həyata keçirilməsinin birbaşa və ya dolayı yolla məhdudlaşdırılması, ona qanunsuz təsir, hədə-qorxu, müdaxilə edilməsi, hörmətsizlik göstərilməsi, məhkəməyə qarşı açıq-aşkar etinasız hərəkətlər edilməsi yolverilməzdir və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

CPM Maddə 28. **Cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi**

28.1. Məhkəmələr cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara məhkəmə iclaslarında yalnız bu Məcəlləyə müvafiq surətdə müəyyən edilmiş hüquqi prosedurlara uyğun faktlar əsasında, qərəzsiz və ədalətlə baxmalıdırlar.
28.4. Cinayət mühakimə icraatını həyata keçirərkən məhkəmələr aşağıdakı vəzifələri yerinə yetirməlidirlər:
28.4.1. cinayət prosesində tərəflərə cinayət təqibi ilə əlaqədar bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün zəruri şəraiti təmin etmək;
28.4.5. cinayət prosesi iştirakçılarının iştirak etmək hüququnu təmin etmək.

CPM Maddə 33. **Cinayət mühakimə icraatında sübutların qiymətləndirilməsi**

33.3. Cinayət prosesində heç bir sübutun və digər materialın qabaqcadan müəyyən edilmiş qüvvəsi yoxdur.

CPM Maddə 109. **Hakimə etiraz**

109.1.8. hakimin cinayət təqibində maraqlı olmasını təsdiq edən konkret və mötəbər sübutlar olduqda.



**Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi naliyitlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik.**

***Heydər Əliyev***

# SÜBUT VƏ DƏLİLLƏR

Məhkəmə prosesi həqiqətin qanuna müvafiq, möhkəm faktlara əsaslanaraq sübut olunması üçün ədalətli aparılmalıdır və bu zaman dəlillər ədalətin icrasında düzgünlüyü təmin edir. Onlar Azərbaycan vətəndaşlarının hüquqlarını müdafiə edirlər. Bu qaydalar həmçinin lazımsız məsrəflərin, vaxt itkisinin,hər hansı bir tərəfə qərəzli münasibətin qarşısını alır.

## İŞƏ DAİR DƏLİLLƏR

İşə dair dəlil hər hansı bir fəaliyyətin mümkünlüyünü müəyyənləşdirən faktın mövcudluğu deməkdir. Başqa sözlə, qeyri müvafiq dəlil cari işlə əlaqəsi olmayan dəlildir. Əgər dəlil cinayət işində verilərsə, bu sadəcə müdafiəçi tərəfə ziyan vurmaq məqsədi deyil, mühüm bir faktı əsaslandırmaq məqsədi daşımalıdır:

- o əməlin töfsivi
- o danışılması mühüm olan məsələ;
- o şahidin etibarlılığını müəyyənləşdirən məsələ; və
- o texniki cəhətdən tələb olunmayan lakin inam baxımından mühüm olan məsələlər, misal üçün: (1) motiv, (2) ba-

carıq və imkan, (3) plan, (4) məqsədin mövcud olub olmaması, (5) psixoloji durum.

Dəlil etibarsız, vaxt itkisinə səbəb olacaq ikinci dərəcəli məsələ olduğu halda və ya keçmişdə hər hansı bir insanın pis hərəkət etdiyini və nəticədə onun pis hərəkətlər etməyə meylli olduğunu göstərmək xarakteri daşıdıqda( "od olmayan yerdən tüstü çıxmaz") qeyri müvafiq hesab olunur. Dəlil qərəzli xarakter deyil,hər hansı bir mühüm faktı sübut etmək xarakteri daşımalıdır.

Qərəzli Dəlil: Qərəzli mühasibət dəlilin düzgünlük dəyərinə üstün gəldikdə müvafiq dəlil istisna olunur. Ədalətsiz qərəzli münasibət yanlış əsaslı, mütləq olmasa da adətən emosional əsaslı qərar irəli sürməyə hədsiz meyllənmək deməkdir. Bura həmçinin prisyajnılar məhkəməsində məsələni dolaşığa salan və ya qeyri düzgün verilən dəlil də daxildir. Qərəzlilik davamlı təxirə salınmalar və vaxt itkisini əhatə edir.

**AK Maddə 127. Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri**

II. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar.

CPM Maddə 126. **Şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və şahidlərin ifadələri**

126.2. Yalnız o ifadələr sübut hesab oluna bilər ki, onlar hadisəni, onun səbəblərini, xarakterini, mexanizmini və ya inkişafını bilavasitə qavrayan şəxsin məlumatlarına və ya nəticələrinə əsaslanmış olsun.

126.3. Şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və ya şahidlərin cinayət prosesini həyata keçirən orqana özgənin sözlərindən verdikləri məlumatlar sübut kimi istifadə edilə bilməz. Yalnız vəfat etmiş şəxsin sözlərindən alınmış məlumatlar məhkəmənin qərarı ilə istisna olaraq sübut kimi qəbul oluna bilər.



## YALNİZ ETİBARLİ SÜBUT VƏ DƏLİLLƏR

Dəlil etibarlı olmalıdır. Bu, umümilikdə andiçmə əsasında verilmiş dəlilləri və dəlillərə düzgün daxil edilmiş sənədləri əhatə edir. Həqiqət yalnız şahid diqqətlə yoxlandıqdan və onun dərketmə qabiliyyəti sınandıqdan sonra sübut oluna bilinər.Beləliklə, "Protokol" keçmişdə olduğu kimi özünəməxsus şəkildə etibarsız bir sənəddir və yalnız şahid məhkəmədə veridiyi əvvəlki ifadədən boyun qaçırdığı halda, ədalətli hakim tərəfindən istifadə oluna bilər.

**AK Maddə 63. Təqsirsizlik prezumpsiyası**

IV. Ədalət mühakiməsi həyata keçirilərkən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə oluna bilməz

**AK Maddə 127. Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri**

IX. Ədalət mühakiməsi təqsirsizlik prezumpsiyasına əsaslanır.

**Maddə 46. Şərəf və ləyaqətin müdafiəsi hüququ**

III. Heç kəsə işgəncə və əzab verilə bilməz. Heç kəs insan ləyaqətini alçaldan rəftara və ya cəzaya məruz qala bilməz. Özünün könüllü razılığı olmadan heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz.

## İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya

**Maddə 3. İşgəncələrin qadağan olunması**
Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.

CPM Maddə 124. **Sübutların anlayışı və növləri**

124.1. Məhkəmənin və ya cinayət prosesi tərəflərinin əldə etdiyi mötəbər dəlillər (məlumatlar, sənədlər, əşyalar) cinayət təqibi üzrə sübutlar hesab olunur. Bu sübutlar:

124.1.1. cinayət-prosessual qanunvericiliyinin tələblərinə əməl edilməklə insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları məhdudlaşdırılmadan və ya məhkəmənin qərarı əsasında (bu Məcəllə ilə nəzərdə tutulmuş təxirə salına bilməyən hallarda isə müstəntiqin qərarı əsasında) məhdudlaşdırmaqla əldə olunmalı;

CPM Maddə 125. **Sübutların mümkünlüyü**

125.1. Məlumatların, sənədlərin və digər əşyaların həqiqiliyinə, yaranma mənbəyinə və əldə edilməsi hallarına şübhələr olmadıqda onlar sübut kimi qəbul edilə bilərlər.

125.2. Aşağıdakı hallarda əldə edilmiş məlumatların, sənədlərin və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilməsinə yol verilmir:

125.2.1. İnsan və vətəndaşların konstitusiya hüquqlarının və azadlıqlarının, yaxud bu Məcəllənin digər tələblərinin pozulması ilə cinayət prosesi iştirakçılarının qanunla təminat verilən hüquqlarından məhrum etmə və ya onları məhdudlaşdırmaqla bu sübutların həqiqiliyinə hər hansı yolla təsir göstərəcəyi və ya göstərə biləcəyi halda;

125.2.2. zorakılıq, hədə-qorxu, aldatma, işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan hərəkətlərin tətbiq edilməsi ilə;

125.2.3. şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüquqlarının, cinayət mühakimə icraatının aparıldığı dili bilməyən şəxsin hüquqlarının pozulması ilə;

125.2.9. məhkəmə iclasında məlum olmayan şəxsdən, yaxud müəyyən olunmayan mənbədən alındıqda;

CPM Maddə 126. **Şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və şahidlərin ifadələri**

126.3. Şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və ya şahidlərin cinayət prosesini həyata keçirən orqana özgənin sözlərindən verdikləri məlumatlar sübut kimi istifadə edilə bilməz. Yalnız vəfat etmiş şəxsin sözlərindən alınmış məlumatlar məhkəmənin qərarı ilə istisna olaraq sübut kimi qəbul oluna bilər.

CPM Maddə 145. **Sübutların qiymətləndirilməsi**

145.1. Hər bir sübut mənsubiyyəti, mümkünlüyü, mötəbərliyi üzrə qiymətləndirilməlidir. Cinayət təqibi üzrə toplanmış bütün sübutların məcmusuna isə ittihamın həlli üçün onların kifayət etməsinə əsasən qiymət verilməlidir.

# ETİRAZLAR

Qərar işə dair dəlillərə əsaslanaraq verilməlidir. Etirazlar açıq mübahisələrin qaldırılması və həlli deməkdir.Bunlar hakimə işarədir ki, prokurorun suallarında, şahidlərin ifadələrində, dəlillərin təqdimatı və istifadəsində, vəkilin davranışında, və ya hakimin davranışında hansısa yanlışlıq var. Biz qərəzli sübut və dəlillərə istinad olunmasına etiraz edir, ədalətsiz rəftarın və ədalətsiz üsulların qarşısının alınmasını və appelyasiya ərizələrinin sənədləşdirilməsini dəstəkləyirik.

**AK Maddə 127. Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri**

II. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar
VII. Məhkəmə icraatı çəkişmə prinsipi əsasında həyata keçirilir.
VIII. Məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə hüququ təmin olunur.

CPM Maddə 84. **Prokuror**

84.1. Cinayət təqibini həyata keçirərkən prokuror cinayət işinin bütün hallarının tədqiqi nəticəsinə əsaslanaraq yalnız qanunun tələblərini və daxili inamını rəhbər tutur.

84.6. Xüsusi ittiham qaydasında cinayət təqibi halları istisna olmaqla, məhkəmə baxışında dövlət ittihamçısı qismində iştirak edərkən prokuror bu Məcəllədə nəzərdə tutulmuş qaydalara riayət etməklə aşağıdakı hüquqlara malikdir:

84.6.1. etirazlar etmək;



CPM Maddə 92. **Müdafiəçi**

92.9.6. etirazlar etmək və vəsatətlər vermək;

92.9.7. cinayət prosesini həyata keçirən orqanın hərəkətlərinə öz etirazını bildirmək və bu etirazın istintaq və ya digər prosessual hərəkət protokolunda qeyd edilməsini tələb etmək;

92.9.16. təhqiqatçının, müstəntiqin və ya prokurorun hərəkətlərindən və qərarlarından şikayət etmək;

92.9.20. cinayət prosesini həyata keçirən orqan tərəfindən onun nəzərinə çatdırılmış məlumatlardan və ya cinayət prosesinin digər iştirakçılarının şikayətlərindən ona məlum olmuş hallara öz etirazını bildirmək;

92.9.23. digər tərəfin qanunsuz hərəkətlərinə öz etirazını bildirmək;

# İSTİSNA QAYDA

Əksər məhkəmə sistemlərinə əsasən, qanunlar pozularkən veriləcək cəzalar müəyyənləşdirilməlidir. Bu o deməkdir ki, həmin pozuntu əsasında əldə edilən dəlil məhkəmə tərəfindən qəbul olunmayacaq. Dövlət tərəfindən edilən pozuntuların qarşısını almaq üçün digər üsullar da vardır.

**Maddə 63. Təqsirsizlik prezumpsiyası**

III. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.

**CPM** Maddə 125. **Sübutların mümkünlüyü**

125.2**. Aşağıdakı hallarda əldə edilmiş məlumatların, sənədlərin və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilməsinə yol verilmir:**

125.2.1. İnsan və vətəndaşların konstitusiya hüquqlarının və azadlıqlarının, yaxud bu Məcəllənin digər tələblərinin pozulması ilə cinayət prosesi iştirakçılarının qanunla təminat verilən hüquqlarından məhrum etmə və ya onları məhdudlaşdırmaqla bu sübutların həqiqiliyinə hər hansı yolla təsir göstərəcəyi və ya göstərə biləcəyi halda;

125.2.2. zorakılıq, hədə-qorxu, aldatma, işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan hərəkətlərin tətbiq edilməsi ilə;

125.2.3. şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüquqlarının, cinayət mühakimə icraatının aparıldığı dili bilməyən şəxsin hüquqlarının pozulması ilə;



125.2.4. cinayət prosesində iştirak edən şəxsin hüquq və vəzifələrinin izah edilməməsi, tam və ya düzgün izah edilməməsi nəticəsində öz hüquq və vəzifələrini yanlış başa düşməsindən istifadə etməklə;

125.2.5. cinayət təqibi üzrə icraatı həyata keçirmək, istintaq və ya digər prosessual hərəkətlər aparmaq hüququ olmayan şəxs tərəfindən bu hərəkətlər edildikdə;

125.2.6. cinayət prosesində onun iştirakını istisna edən halları bildiyi və ya bilməli olduğu halda etiraz edilməli şəxsin iştirakı ilə;

125.2.7. istintaq və ya digər prosessual hərəkətlərin icraatı qaydaları kobud pozuntularla aparıldıqda;

125.2.8. sənədi və ya digər əşyanı tanımağa qadir olmayan, onun həqiqiliyini, mənbəyini, əldə olunma hallarını təsdiq edə bilməyən şəxsdən alındıqda;

**125.2.9. məhkəmə iclasında məlum olmayan şəxsdən, yaxud müəyyən olunmayan mənbədən alındıqda;**

125.2.10. müasir elmi baxışlara zidd üsulların tətbiqi nəticəsində alındıqda.

125.3. Bu Məcəllənin 125.2-ci maddəsində nəzərdə tutulmuş hallarda alınmış məlumatlar, sənədlər və əşyalar **hüquqi qüvvəsi olmayan hesab edilir** və onlar ittihamın düzgün həlli üçün hər hansı halın sübut olunmasında istifadə edilə bilməz.

125.4. Bu Məcəllənin 125.2-ci maddəsində nəzərdə tutulmuş pozuntularla əldə edilmiş materiallar müvafiq pozuntu faktlarının və onlara yol vermiş şəxslərin təqsirliyinin sübut edilməsində istifadə oluna bilər.

## ŞAHİDLƏR

Şahidlər ümumilikdə öz ifadələrini gördükləri, eşitdikləri və ya dərk etdikləri faktlar əsasında qurmalıdırlar. Belə ki, dəlil diqqətlə yoxlanıldıqdan sonra etibarlı sayılır. Şayiəyə əsaslanan məlumat ümumilikdə etibarsız sayılır.

CPM Maddə 126. **Şübhəli, təqsirləndirilən, zərər çəkmiş şəxsin və şahidlərin ifadələri**

126.2. Yalnız o ifadələr sübut hesab oluna bilər ki, onlar hadisəni, onun səbəblərini, xarakterini, mexanizmini və ya inkişafını bilavasitə qavrayan şəxsin məlumatlarına və ya nəticələrinə əsaslanmış olsun

## EKSPERT RƏYİ

Ekspert rəyi yalnız xüsusi hallarda məhkəməyə köməklik göstərə bilər. Məhkəmə növbəti hallarda buna imkan verməlidir:: məsələ adi insanın bilməyəcəyi hər hansı bir elm, peşə, biznes və ya məşğuliyyət növü ilə bağlı olduqda; şahidin həmin sahə ilə bağlı kifayət qədər biliyə və təcrübəyə malik olması faktın araşdırılmasına kömək edə bildikdə; müasir metodlar və ya elmi bilik düzgün qərar çıxarmağa imkan vermədikdə. Başqa sözlə, məhkəmə ekspertin istifadə etdiyi elmi metodun həmin sahəyə uyğun şəkildə qurulduğunu müəyyənləşdirməlidir.

CPM Maddə 264. **Ekspertizanın aparılmasının əsasları**

CPM Maddə 268. **Ekspertizanın təyin edilməsi və aparılması zamanı şübhəli və ya təqsirləndirilən şəxsin hüquqları**



**Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.**
***Heydər Əliyev***

## Cinayət prosesinin seçilmiş qaydaları.

## İstintaq

**AK Maddə 67. Tutulan, həbsə alınan və cinayət törədilməsində ittiham edilənlərin hüquqları**

Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində ittiham etdiyi hər bir şəxsə dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir.

CPM Maddə 12. **Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması**

12.3. Cinayət prosesi gedişində hər kəsin özünün Konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarını qanunla qadağan edilməyən bütün üsul və vasitələrlə müdafiə etməyə hüququ vardır.

CPM Maddə 91. **Təqsirləndirilən şəxs**

91.4. Müstəntiq, prokuror və ya məhkəmə təqsirləndirilən şəxsin hüquqlarını təmin etməli və ona qanunla qadağan edilməyən bütün vasitə və üsullardan istifadə etməklə müdafiə hüququnu həyata keçirməsinə mane olmamalı və onun xahişi ilə müdafiəyə hazırlıq üçün kifayət qədər vaxt verməlidir.

91.5. Təqsirləndirilən şəxs bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı hüquqları həyata keçirir:

91.5.1. nədə təqsirləndiyini bilmək (ittihamın məzmunu

verilmiş ittihamın faktiki tərəfi və hüquqi tövsifi), ittiham elan edildikdə, habelə həbsə alındıqdan və ya barəsində qətimkan tədbiri seçilməsi haqqında qərar elan olunduqdan dərhal sonra müvafiq qərarın surətini almaq;

91.5.2. onu tutmuş və ya həbs haqqında qərarı icra etmiş şəxsdən, təhqiqatçıdan, müstəntiqdən və ya prokurordan hüquqları haqqında yazılı bildiriş almaq;

91.5.3. dərhal tutulma və həbsə alma protokolu tərtib olunduqdan sonra onunla tanış olmaq və ona protokolda əks olunmalı qeydlərini vermək;

91.5.4. həbsə alındığı və ya ittiham elan olunduğu andan müdafiəçiyə malik olmaq;

91.5.5. müdafiəçinin yardımından pulsuz istifadə etmək;

91.5.6. tutulduqdan dərhal sonra ailəsinə, qohumlarına, yaşadığı və ya işlədiyi (oxuduğu) yerə telefonla və ya digər vasitələrlə tutulması barədə xəbər vermək;

**91.5.7. müstəqil olaraq müdafiəçi seçmək, onun səlahiyyətlərinə xitam vermək, müdafiəçidən imtina etdiyi halda özü özünü müdafiə etmək;**

**91.5.8. söhbətlərin sayı və müddəti məhdudlaşdırılmadan müdafiəçisi ilə təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq;**

91.5.9. öz vəsatəti əsasında müdafiəçinin iştirakı ilə dindirilmək;

91.5.10. ifadə (izahat) vermək, özünə və yaxın qohumlarına qarşı ifadə (izahat) verməmək və ya ümumiyyətlə ifadə (izahat) verməkdən imtina etmək, habelə haqqında irəli sürülmüş ittihama dair izahat vermək və izahat verməkdən imtina etmək;

91.5.11. ana dilində və ya bildiyi başqa dildə ifadə (izahat) vermək;

91.5.12. tərcüməçinin köməyindən pulsuz istifadə etmək;

91.5.13. etirazlar etmək və vəsatətlər vermək;





**AK Maddə 31. Təhlükəsiz yaşamaq hüququ**

I. Hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır.
II. Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.

**AK Maddə 32. Şəxsi toxunulmazlıq hüququ**

I. Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.
II. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa şəxsi həyata müdaxilə etmək qadağandır.
III. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir.
IV. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

**AK Maddə 33. Mənzil toxunulmazlığı hüququ**

I. Hər kəsin mənzil toxunulmazlığı hüququ vardır.
II. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

CPM Maddə 15. **Şəxsiyyətin toxunulmazlığı hüququnun təmin edilməsi**

15.2. Cinayət təqibi gedişində aşağıdakılar qadağandır:

15.2.1. işgəncələr vermək, fiziki və psixi zorakılıqdan, o cümlədən tibbi preparatlardan istifadə etmək, aclığa, hipnoza məruz qoymaq, tibbi yardımdan məhrum etmək, digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzalar tətbiq etmək;

15.2.2. uzun sürən və ya kəskin fiziki iztirabla, yaxud səhhətin müvəqqəti pozulması ilə müşayiət olunan eksperimentlərdə və ya digər prosessual hərəkətlərdə iştiraka cəlb etmək, habelə buna bənzər hər hansı digər sınaqlar keçirmək;

15.2.3. zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxsdən, habelə cinayət prosesində iştirak edən' digər şəxslərdən zorakılıq, hədə-qorxu, aldatma yolu ilə və onların hüquqlarını pozan sair qanunsuz hərəkətlər tətbiq etməklə ifadə almaq.

CPM Maddə 16. **Şəxsi həyatın toxunulmazlığı hüququnun təmin edilməsi**

16.1. Cinayət təqibi gedişində heç kəsin şəxsi (özünün və ailəsinin) həyatın sirrinin, yazışma, telefon danışıqları, poçt-teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatların və başqa məlumatların sirrinin saxlanılması hüququ bu Məcəllədə nəzərdə tutulmuş hallardan başqa məhdudlaşdırıla bilməz.

16.2. Poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyma, onu yoxlama və götürmə, telefon və digər qurğularla aparılan danışıqların və başqa rabitə və texniki kanallar vasitəsi ilə ötürülən məlumatların və başqa məlumatların tutulması bu Məcəllə ilə müəyyən edilmiş hallarda, bir qayda olaraq, məhkəmənin qərarı ilə həyata keçirilə bilər.



# İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya

**Maddə 3. İşgəncələrin qadağan olunması**
Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.
**Maddə 8. Şəxsi və ailə həyatina hörmət hüququ**

1. Hər kəs öz şəxsi və ailə həyatina, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir.
2. Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaşın və ya cinayətin qarşisini almaq üçün, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, bu hüququn həyata keçirilməsinə hakimiyyəti orqanları tərəfindən müdaxiləyə yol verilmir**.**

**AK Maddə 29. Mülkiyyət huququ**

I. Hər kəsin mülkiyyət hüququ vardır.
II. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur.
III. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.
IV. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam müsadirəsinə yol verilmir. Dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər.
V. Dövlət vərəsəlik hüququna təminat verir.

CPM Maddə 17. **Mənzil toxunulmazlığı hüququnun təmin edilməsi**

17.1. Bu Məcəllədə nəzərdə tutulmuş hallardan başqa, heç kəs mənzildə yaşayanların iradəsi ziddinə mənzilə daxil ola bilməz.

17.2. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada yaşayış yerinə, xidməti və ya istehsalat binalarına baxış, orada axtarış və mülkiyyət hüququnu məhdudlaşdıran digər istintaq və prosessual hərəkətlər, bir qayda olaraq, məhkəmənin qərarı əsasında məcburi həyata keçirilir.

CPM Maddə 243. **Axtarış və ya götürmənin aparılması üçün əsaslar**

243.1. Axtarış və ya götürmə, bir qayda olaraq, məhkəmənin qərarı əsasında aparılır. Məhkəmə axtarış və ya götürmənin aparılması haqqında qərarı müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı olduqda çıxara bilər. Axtarış və ya götürmə bu Məcəllənin 177.2—177.6-cı maddələrində nəzərdə tutulmuş tələblər yerinə yetirilməklə aparılır.

243.3. Təxirə salına bilməyən hallarda müstəntiq axtarış və ya götürməni məhkəmənin qərarı olmadan yalnız aşağıdakıları güman etməyə əsas verən dəqiq məlumat olduqda apara bilər:

243.3.1. şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə cinayətin törədilməsinə və ya həmin cinayətin törədilməsinə hazırlığın aparılmasına dəlalət edən əşya və ya sənədlərin yaşayış yerində gizlədilməsini;

243.3.2. şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə cinayəti hazırlayan, törədən, törətmiş, həbsdən və ya azadlıqdan məhrum etmə yerlərindən qaçmış şəxsin yaşayış yerində gizləndiyini;



243.3.3. yaşayış yerində insan meyitinin (meyit hissələrinin) olmasını;

243.3.4. yaşayış yerində insanın həyat və ya səhhəti üçün real təhlükə olduğunu.

243.4. Bu Məcəllənin 243.3-cü maddəsində nəzərdə tutulmuş hallarda müstəntiq axtarış və ya götürmənin aparılması barədə əsaslandırılmış qərar çıxarır. Müstəntiqin qərarı bu Məcəllənin 243.2-ci maddəsinin tələblərinə müvafiq olaraq, habelə məhkəmənin qərarı olmadan axtarış və ya götürmə aparılmasının zəruriliyi və təxirə salına bilməməsi əsasları nəzərə alınmaqla tərtib edilir.

CPM Maddə 124. **Sübutların anlayışı və növləri**

124.1. Məhkəmənin və ya cinayət prosesi tərəflərinin əldə etdiyi mötəbər dəlillər (məlumatlar, sənədlər, əşyalar) cinayət təqibi üzrə sübutlar hesab olunur. Bu sübutlar:

124.1.1. cinayət-prosessual qanunvericiliyinin tələblərinə əməl edilməklə insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları məhdudlaşdırılmadan və ya məhkəmənin qərarı əsasında (bu Məcəllə ilə nəzərdə tutulmuş təxirə salına bilməyən hallarda isə müstəntiqin qərarı əsasında) məhdudlaşdırmaqla əldə olunmalı;

CPM Maddə 125. **Sübutların mümkünlüyü**

125.2. Aşağıdakı hallarda əldə edilmiş məlumatların, sənədlərin və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilməsinə yol verilmir:

125.2.1. İnsan və vətəndaşların konstitusiya hüquqlarının və azadlıqlarının, yaxud bu Məcəllənin digər tələblərinin pozulması ilə cinayət prosesi iştirakçılarının qanunla təminat verilən hüquqlarından məhrum etmə və ya onları məhdud-

laşdırmaqla bu sübutların həqiqiliyinə hər hansı yolla təsir göstərəcəyi və ya göstərə biləcəyi halda;

125.2.2. zorakılıq, hədə-qorxu, aldatma, işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan hərəkətlərin tətbiq edilməsi ilə;

125.2.3. şübhəli və ya təqsirləndirilən şəxsin müdafiə hüquqlarının, cinayət mühakimə icraatının aparıldığı dili bilməyən şəxsin hüquqlarının pozulması ilə;

**ZAMİNLİK**

Ayrı-ayrı fərdlər zaminlikl altında azad oluna bildikləri halda, tez-tez həbsdə saxlanılırlar. Əksər ölkələrdə, şəxsin zaminlik altında azad oluna biləcəyi barəsində konkret yanaşma mövcuddur. Hər hansı bir şəxs proses üçün təhlükə törətmədikdə və real qaçış riski olmadıqda zaminlik altında azad oluna bilər. Zaminlik üçün tələb olunan pulun miqdarı kifayət qədər yüksək olmalıdır ki, şəxs növbəti məhkəmə proseslərində iştirak etmək üçün məhkəməyə gəlsin, lakin bu miqdar həmin şəxsin real maddi imkanlarını üstələməməlidir.

Vəkil şübhəli şəxsə irəli sürülən cinayətin xarakteri və ağırlıq dərəcəsini, o cümlədən cinayətin törədildiyi şəraiti (155.2.1); müştərinin şəxsiyyətini,yaşını,sağlamlığını, peşəsini, ailəsini, iqtisadi və sosial mövqeyini, o cümlədən daimi yaşayış yerini (155.2.2); şübhəli şəxsin əvvəllər cinayət törədib törətmədiyini, əvvəlki qəti imkan tədbirlərinin növünü və digər mühüm faktları nəzərə almalıdır. (155.2.3)

**AK Maddə 67. Tutulan, həbsə alınan və cinayət törədilməsində ittiham edilənlərin hüquqları**



Səlahiyyətli dövlət orqanlarının tutduğu, həbsə aldığı, cinayət törədilməsində ittiham etdiyi hər bir şəxsə dərhal onun hüquqları bildirilir və tutulmasının, həbsə alınmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin səbəbləri izah edilir.

CPM Maddə 13. **Şəxsin şərəf və ləyaqətinə hörmət edilməsi**

13.1. Cinayət təqibi gedişində insanın şərəf və ləyaqətini alçaldan, təhqir edən, habelə cinayət prosesində iştirak edən şəxslərin həyatı və səhhəti üçün təhlükə törədə biləcək qərarların qəbul edilməsi və ya hərəkətlərə yol verilməsi qadağandır.

13.2. Cinayət təqibi gedişində heç kəs:

13.2.1. insan ləyaqətini alçaldan rəftara və cəzaya məruz qala bilməz;

13.2.2. insan ləyaqətini alçaldan şəraitdə saxlanıla bilməz;

13.2.3. ləyaqəti alçaldan prosessual hərəkətlərin keçirilməsində iştiraka məcbur edilə bilməz.

CPM Maddə 14. **Azadlıq hüququnun təmin edilməsi**

14.1. Hər kəsin azadlıq hüququ yalnız qanunla nəzərdə tutulmuş qaydada və hallarda onun tutulması, həbsə alınması və ya azadlıqdan məhrum edilməsi ilə məhdudlaşdırıla bilər.

14.2. Bu Məcəllə və Azərbaycan Respublikasının digər qanunu ilə müəyyən edilmiş əsaslar olmadan heç kəs tutula və həbs edilə bilməz.

14.3. Şəxsin həbsdə saxlanılmasına, habelə tibb və ya tərbiyə müəssisəsinə məcburi yerləşdirilməsinə yalnız məhkəmə qərarı əsasında yol verilir.

14.4. Hər bir tutulmuş və ya həbsə alınmış şəxsə dərhal tutulmanın, yaxud həbsə almanın səbəbləri, habelə şübhə-

nin və ya ittihamın mahiyyəti, ifadə verməmək və müdafiəçi tərəfindən hüquqi yardım almaq hüquqları bildirilməlidir.

14.5. Təhqiqatçı, müstəntiq, prokuror və ya hakim qanunsuz tutulmuş, yaxud həbsdə saxlanılan şəxsi dərhal azad etməlidir.

CPM Maddə 155. **Qətimkan tədbirlərinin tətbiqi əsasları**

155.1. Qətimkan tədbirləri müvafiq təhqiqatçı, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə tərəfindən o hallarda tətbiq oluna bilər ki, cinayət təqibi üzrə toplanmış materiallar şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən aşağıdakı hərəkətlərin edilməsi ehtimalına kifayət qədər əsas versin:

155.1.1. cinayət prosesini həyata keçirən orqandan gizlənmək;

155.1.2. cinayət prosesində iştirak edən şəxslərə qanunsuz təsir göstərməklə, cinayət təqibi üzrə əhəmiyyət kəsb edən materialları gizlətməklə və ya saxtalaşdırmaqla ibtidai istintaqın və ya məhkəmə baxışının normal gedişinə mane olmaq;

155.1.3. cinayət qanunu ilə nəzərdə tutulmuş əməli yenidən törətmək və ya cəmiyyət üçün təhlükə yaratmaq;

155.1.4. cinayət prosesini həyata keçirən orqanın çağırışlarına üzrlü səbəblər olmadan gəlməmək və ya digər yolla cinayət məsuliyyətinə cəlb edilməkdən və cəza çəkməkdən boyun qaçırmaq;

155.1.5. məhkəmə hökmünün icra edilməsinə maneə törətmək.

**CPM** Maddə 154. **Qətimkan tədbirinin anlayışı və növləri**

154.2. Qətimkan tədbirləri aşağıdakılardır:

154.2.1. həbs;



154.2.2. ev dustaqlığı;
154.2.3. girov;
154.2.4. başqa yerə getməmək barədə iltizam;
154.2.5. şəxsi zaminlik;
154.2.6. təşkilatın zaminliyi;
154.2.7. polisin nəzarəti altına vermə;
154.2.8. nəzarət altına vermə;
154.2.9. komandanlığın müşahidəsi altına vermə;
154.2.10. vəzifədən kənarlaşdırma.

**Demokratiya dövlətçiliyimizin əsasını təşkil edəcəkdir**

***<u>Heydər Əliyev</u>***

# Cinayət prosesinin seçilmiş qaydaları.

## Məhkəmə

**Sübutetmə vəzifəsi:**

**<u>AK Maddə 127. Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri</u>**

II. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar.

**<u>AK Maddə 63. Təqsirsizlik prezumpsiyası</u>**

I. Hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır.
II. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir.
III. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.

CPM Maddə 8. **Cinayət mühakimə icraatının vəzifələri**

8.0. Cinayət mühakimə icraatının vəzifələri aşağıdakılardan ibarətdir:



8.0.1. şəxsiyyəti, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumaq;
8.0.2. həqiqi və ya ehtimal edilən cinayət törətməsi ilə əlaqədar şəxsiyyəti vəzifə səlahiyyətlərindən sui-istifadə edilməsi hallarından qorumaq;

CPM Maddə 9. **Cinayət mühakimə icraatının əsas prinsipləri və şərtlərinin təyinatı**

9.1.2. insan və vətəndaş hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarından onun müdafiəsini təmin edir.

CPM Maddə 32. **Cinayət prosesində tərəflərin çəkişməsi**

32.1. Azərbaycan Respublikasında cinayət mühakimə icraatı ittiham və müdafiə tərəfinin çəkişməsi əsasında həyata keçirilir.
32.2.3. ittiham tərəfi cinayət hadisəsinin baş verməsini, cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin əlamətlərinin mövcudluğunu, bu əməlin törədilməsinə təqsirləndirilən şəxsin aidiyyətini, cinayəti törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb olunmasının mümkünlüyünü sübut edir, təqsirləndirilən şəxsin əməlinin hüquqi tövsifinə və məhkəmənin yekun qərarına dair öz təkliflərini verir;
32.2.4. müdafiə tərəfi cinayət təqibi ilə bağlı irəli sürülmüş ittihamı təkzib edir və ya cinayət prosesini həyata keçirən orqanın diqqətini təqsirləndirilən şəxsin cinayət məsuliyyətindən azad edilməsinə və ya cinayət məsuliyyətini yüngülləşdirən halların mövcudluğuna cəlb edir və təqsirləndirilən şəxsin əməlinin hüquqi tövsifinə və məhkəmənin yekun qərarına dair öz təkliflərini verir;

CPM Maddə 138. **Sübutetmənin anlayışı**

138.1. Sübutetmə ittihamın qanuni, əsaslı və ədalətli həlli üçün əhəmiyyət kəsb edən halların müəyyən edilməsi məqsədi ilə sübutların əldə edilməsindən, yoxlanılmasından və qiymətləndirilməsindən ibarətdir.

138.2. Təqsirləndirilən şəxsin cinayət məsuliyyətinə cəlb olunması əsaslarını və onun təqsirli olub-olmamasını sübutetmə vəzifəsi ittihamçının üzərinə düşür.

**İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya**
**Maddə 6**
**Ədalətli məhkəmə araşdırması hüququ**

1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Məhkəmə qərarı açıq elan edilir, lakin demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik mülahizələrinə görə, həmçinin yetkinlik yaşina çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi bunu tələb etdikdə, yaxud məhkəmənin fikrincə, aşkarliğın ədalət mühakiməsinin maraqlarini poza biləcəyi xüsusi hallar zamanı ciddi zərurət olduqda mətbuat və ictimaiyyət bütün proses boyu və ya onun bir hissəsində məhkəmə iclasina buraxılmaya bilər.
2. Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir.
3. Cinayət törətməkdə ittiham olunan hər kəs ən azı aşağıdakı hüquqlara malikdir:
a) ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq;
b) öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq;
c) şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiədən pulsuz istifadə etmək;
d) onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsi hüququna malik olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlər çağırılması və dindirilməsi hüququna malik olmaq;
e) məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danişa bilmirsə, tərcüməçinin pulsuz köməyindən istifadə etmək.

# Hakim

**AK Maddə 127. Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri**

I. Hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər.
II. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar.
II. Hər hansı bir şəxs tərəfindən və hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanuna zidd təsir, hədə və müdaxilə edilməsi yolverilməzdir.
IV. Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir.
V. Bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır. İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, məhkəmə açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir, ya da vətəndaşların şəxsi və ya ailə həyatının məxfiliyini qorumaq zərurətinin mövcudluğunu müəyyən edir.
VI. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, cinayət işlərinin qiyabi məhkəmə icraatına yol verilmir.

CPM Maddə 2. **Cinayət-prosessual qanunvericiliyin mənbələri**

2.4. Cinayət-prosessual fəaliyyət daxilində insan və vətəndaş hüquq və azadlıqlarını ləğv edən və ya məhdudlaşdıran, hakimlərin müstəqilliyini və ədalət mühakiməsinin həyata keçirilməsində çəkişmə prinsipini pozan, əvvəlcədən sübutlara müəyyən hüquqi qüvvə verən normativ hüquqi aktlar tətbiq edilə bilməz. Digər qanunlardakı prosessual hüquq normaları bu Məcəllənin müddəalarına uyğunlaşdırılmalıdır.



CPM Maddə 25. **Hakimlərin və andlı iclasçıların müstəqilliyi**

25.1. Hakimlər və andlı iclasçılar müstəqildirlər və yalnız Azərbaycan Respublikası qanunlarının tələblərinə tabedirlər.
25.2. Hakimlər və andlı iclasçılar cinayət prosesini həyata keçirən orqanların ibtidai araşdırmada gəldikləri nəticələrlə bağlı deyillər.
25.3. Hakimlər və andlı iclasçılar cinayət işlərini və ya cinayət təqibi ilə bağlı digər materialları məhkəmə iclasında cinayət prosesi tərəflərinin təqdim etdikləri sübutların tədqiqinə əsaslanan öz daxili inamı və hüquq düşüncəsi ilə həll edirlər.

CPM Maddə 28. **Cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi**

28.1. Məhkəmələr cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara məhkəmə iclaslarında yalnız bu Məcəlləyə müvafiq surətdə müəyyən edilmiş hüquqi prosedurlara uyğun faktlar əsasında, qərəzsiz və ədalətlə baxmalıdırlar.
28.2. Hakimlər cinayət mühakimə icraatını həyata keçirərkən qanunun mənafeyindən başqa hər hansı bir mənafeyi ifadə edə bilməzlər.
28.3. Hakim və ya andlı iclasçı şəxsən cinayət prosesinin nəticəsi ilə birbaşa, yaxud dolayı yolla maraqlıdırsa, cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə ədalət mühakiməsinin həyata keçirilməsində iştirak edə bilməz.
28.4. Cinayət mühakimə icraatını həyata keçirərkən

məhkəmələr aşağıdakı vəzifələri yerinə yetirməlidirlər:

28.4.1. cinayət prosesində tərəflərə cinayət təqibi ilə əlaqədar bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün zəruri şəraiti təmin etmək;

28.4.2. şübhəli və ya təqsirləndirilən şəxsi həm ifşa edən, həm də ona bəraət verən halları, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları nəzərə almaq;

28.4.5. cinayət prosesi iştirakçılarının iştirak etmək hüququnu təmin etmək.

28.5. Şəxsin cinayət törətməkdə təqsirli olmasına dair məhkəmə qərarı mülahizələrə əsaslana bilməz və işə aid biri digərinə kifayət qədər uyğun gələn mötəbər sübutların məcmusu ilə təsdiq olunmalıdır.

28.6. Ədalət mühakiməsinin həyata keçirilməsi qaydalarının ayrı-ayrı işlər və şəxslər üçün, habelə müəyyən şəraitə görə, yaxud hər hansı bir zaman dövründə özbaşınalıqla dəyişdirilməsinə yol verilmir.

CPM Maddə 109. **Hakimə etiraz**

109.1. Hakimə (məhkəmə tərkibinə) edilən etiraz əsaslandırılmalıdır. Etirazda konkret əsaslar olmadıqda o, işə baxan məhkəmə tərəfindən baxılmamış saxlanılır. Hakimə etiraz o halda əsaslı sayıla və şərtsiz təmin edilə bilər ki, hər hansı şəxsin cinayət prosesində hakim qismində iştirakını istisna edən aşağıdakı hallardan heç olmasa biri olsun:

109.1.8. hakimin cinayət təqibində **maraqlı olmasını** təsdiq edən konkret və mötəbər sübutlar olduqda.



## İttiham və müdafiə

CPM Maddə 310. **Məhkəmə iclasında qaydanın təmin edilməsi**

310.2.8. məhkəmə iclasında çıxış edən şəxslərin çıxışını kəsməmək, şərh etməmək və ya onların ünvanına atmacalar atmamaq;

310.2.9. təhqiredici və nalayiq ifadə və hərəkətlərdən, habelə təqsirləndirilən və ya zərər çəkmiş şəxsin, şahidin və cinayət prosesinin digər iştirakçılarının dindirilməsi zamanı yönəldici suallardan çəkinmək.

**CPM** Maddə 84. **Prokuror**

84.1. Cinayət təqibini həyata keçirərkən prokuror cinayət işinin bütün hallarının tədqiqi nəticəsinə əsaslanaraq yalnız qanunun tələblərini və daxili inamını rəhbər tutur.

84.6. Xüsusi ittiham qaydasında cinayət təqibi halları istisna olmaqla, məhkəmə baxışında dövlət ittihamçısı qismində iştirak edərkən prokuror bu Məcəllədə nəzərdə tutulmuş qaydalara riayət etməklə aşağıdakı hüquqlara malikdir:

84.6.1. etirazlar etmək;

84.6.2. vəsatətlər vermək;

84.6.3. məhkəmədə həll edilən məsələlər və cinayət prosesinin digər iştirakçılarının vəsatətləri üzrə öz rəyini bildirmək;

84.6.4. ittiham tərəfinin sübutlarını məhkəməyə təqdim etmək, habelə məhkəməyə sübutların təqdim olunması məqsədi ilə məhkəmənin qərarı ilə prosessual məcburiyyət tədbirləri tətbiq etmək;

84.6.5. birinci və apellyasiya instansiyası məhkəmələ-

rində məhkəmə istintaqında və işin materiallarının tədqiqində iştirak etmək;

84.6.6. birinci instansiya məhkəməsinin iclasında andlı iclasçıların seçilməsində iştirak etmək;

84.6.7. müdafiə tərəfinin qanunsuz hərəkətlərinə öz etirazını bildirmək;

84.6.8. qeyd olunmalı hərəkətlərin istintaq və ya digər prosessual hərəkətlərin protokoluna və ya məhkəmənin iclas protokoluna daxil edilməsini tələb etmək;

84.6.9. bu Məcəllənin 41.3-cü maddəsində nəzərdə tutulmuş hallarda təqsirləndirilən şəxsə qarşı cinayət təqibindən imtina etmək;

84.6.10. birinci və apellyasiya instansiyası məhkəmələrində giriş, yekun nitqi və replika söyləmək, kassasiya instansiyası məhkəməsində isə baxılan məsələ üzrə çıxış etmək;

84.6.11. məhkəmələrdə cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları ilə tanış olmaq, hökmdən və məhkəmənin digər qərarlarından protest vermək;

84.6.12. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

84.7. Dövlət ittihamçısı aşağıdakı vəzifələri yerinə yetirməlidir:

84.7.1. məhkəmə iclasında qaydaya riayət etmək;

84.7.2. məhkəmə iclasında sədrlik edənin sərəncamlarına tabe olmaq;

84.7.3. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri icra etmək.

CPM Maddə 92. **Müdafiəçi**

92.9. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada müdafiəçi aşağıdakı hüquqları həyata keçirir:

92.9.1. şübhənin və ya ittihamın mahiyyətini bilmək;



92.9.2. söhbətlərin sayı və müddəti məhdudlaşdırılmadan müdafiə etdiyi şəxslə təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq;

92.9.3. cinayət prosesini həyata keçirən orqanın təklifi ilə bu orqanın apardığı istintaq və ya digər prosessual hərəkətlərdə, habelə müdafiə etdiyi şəxsin iştirakı ilə keçirilən hər hansı istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etmək;

92.9.4. şübhəli və ya təqsirləndirilən şəxsə hüquqlarını yadına salmaq, istintaq və ya digər prosessual hərəkəti aparan şəxsin nəzərini onun yol verdiyi qanun pozuntularına cəlb etmək;

92.9.5. məhkəməyədək və ya məhkəmə icraatı zamanı cinayət işinə əlavə və ya məhkəmə iclasında tədqiq edilməsi üçün sübutlar, habelə digər materiallar toplamaq və cinayət prosesini həyata keçirən orqana təqdim etmək;

92.9.6. etirazlar etmək və vəsatətlər vermək;

92.9.7. cinayət prosesini həyata keçirən orqanın hərəkətlərinə öz etirazını bildirmək və bu etirazın istintaq və ya digər prosessual hərəkət protokolunda qeyd edilməsini tələb etmək;

92.9.8. özünün və ya müdafiə etdiyi şəxsin iştirakı ilə keçirilmiş istintaq və ya digər prosessual hərəkətlərin, habelə məhkəmə iclasının protokolları ilə tanış olmaq; iştirak etdiyi istintaq və ya digər prosessual hərəkətlərin protokollarındakı yazıların düzgünlüyü və tamlığı barədə qeydlər vermək; istintaq və ya digər prosessual hərəkətlərdə və məhkəmə baxışında iştirak edərkən zəruri olan halların müvafiq protokola daxil edilməsini tələb etmək;

92.9.9. şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsinin həyata keçirilməsi ilə əlaqədar məsələlərin aydınlaşdırılması üçün sübutların toplanması üzrə tədbirlər həyata keçirmək, bu məqsədlə cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildiyi halda fiziki və hüquqi şəxslərin razılığı ilə onları sorğu-suala tutmaq, habelə müqavilə əsasında

ekspertin rəyini almaq və mütəxəssisin fikrini öyrənmək;

92.9.10. cinayət prosesini həyata keçirən orqanın ekspertizanın təyin edilməsi haqqında qərarı və ona dair ekspertin rəyi ilə, müdafiə etdiyi şəxsin tutulması, həbsə alınması və ya həbsdə saxlanmasının qanuni və əsaslı olduğunu təsdiq etmək üçün cinayət prosesini həyata keçirən orqanın məhkəməyə təqdim etdiyi materiallarla tanış olmaq;

92.9.11. ibtidai araşdırma qurtardığı və ya cinayət işi üzrə icraata xitam verildiyi andan işin materialları ilə tanış olmaq, müdafiə etdiyi şəxsə aid zəruri sənədlərin surətlərini çıxarmaq;

92.9.12. birinci və apellyasiya instansiyası məhkəmələrinin iclaslarında və işin materiallarının tədqiqində iştirak etmək;

92.9.13. birinci instansiya məhkəməsinin iclasında andlı iclasçıların seçilməsində iştirak etmək;

92.9.14. birinci və apellyasiya instansiyası məhkəmələrinin iclaslarında nitq və replika söyləmək, kassasiya məhkəməsində isə baxılan məsələ üzrə çıxış etmək;

92.9.15. hüquqlarına və qanuni mənafeyinə toxunan qərarlar haqqında cinayət prosesini həyata keçirən orqan tərəfindən məlumatlanmaq və özünün xahişi ilə bu qərarların, o cümlədən qətimkan tədbirinin seçilməsi, istintaq və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılması, təqsirləndirilən şəxs qismində cəlb etmə, ittiham elan olunması haqqında qərarların, habelə ittiham aktının, iddia ərizəsinin, hökmün, məhkəmənin digər yekun qərarının, apellyasiya və ya kassasiya şikayətlərinin, yaxud protestlərinin surətlərini almaq;

92.9.16. təhqiqatçının, müstəntiqin və ya prokurorun hərəkətlərindən və qərarlarından şikayət etmək;

92.9.17. hökmdən və ya məhkəmənin digər qərarlarından apellyasiya, kassasiya və ya əlavə kassasiya qaydasında şikayət vermək;



92.9.18. ittiham hökmündən şikayət istisna olmaqla, verdiyi hər hansı şikayətdən imtina etmək;

92.9.19. müdafiə etdiyi şəxsin tapşırığı ilə onun adından şübhəli və ya təqsirləndirilən şəxsin zərər çəkmiş şəxslə barışdırılmasında çıxış etmək;

92.9.20. cinayət prosesini həyata keçirən orqan tərəfindən onun nəzərinə çatdırılmış məlumatlardan və ya cinayət prosesinin digər iştirakçılarının şikayətlərindən ona məlum olmuş hallara öz etirazını bildirmək;

92.9.21. müdafiə etdiyi şəxsin qanuni mənafeyinə toxunan şikayətlə əlaqədar cinayət işinə məhkəmə iclasında kassasiya, əlavə kassasiya və ya hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə baxılmasında və işin materiallarının tədqiqində iştirak etmək;

92.9.22. məhkəmə iclasında cinayət prosesinin digər iştirakçıları tərəfindən verilmiş vəsatət və təkliflər, habelə məhkəmə tərəfindən həll edilən məsələlər üzrə öz fikrini bildirmək;

92.9.23. digər tərəfin qanunsuz hərəkətlərinə öz etirazını bildirmək;

92.9.24. cinayət prosesinin gedişində şübhəli və ya təqsirləndirilən şəxsə hüquqi yardım göstərildikdə müdafiə etdiyi şəxsin hesabına, hüquqi yardım pulsuz göstərildikdə isə Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına haqq almaq;

92.9.25. bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqlardan istifadə etmək.

92.10. Müdafiəçiyə aşağıdakılar qadağan olunur:

92.10.1. müdafiə etdiyi şəxsin qanuni mənafeyinə zidd olaraq hər hansı hərəkəti etmək, o cümlədən onun törədilmiş cinayətlə əlaqəsini və təqsirini təsdiq etmək, ona qarşı qaldırılmış mülki iddianı qəbul etmək, onun iştirakı ilə aparılan prosessual hərəkətlərdə iştirakdan imtina etmək və onun hü-

quqlarının həyata keçirilməsinə mane olmaq;

92.10.2. yeni cinayətin hazırlanması və ya törədilməsi barədə məlumat alınması, habelə müdafiəni lazımi qaydada həyata keçirməməsinə görə vəkilin məsuliyyət məsələsi həll edilərkən müdafiə olunan şəxsin dəlillərinin təkzib edilməsi halları istisna olmaqla, hüquqi yardım göstərilməsi ilə əlaqədar ona məlum olan məlumatlardan müdafiə etdiyi şəxsin qanuni mənafeyi ziddinə istifadə oluna bilərsə, onları yaymaq;

92.10.3. özbaşına müdafiədən imtina etmək və ya müdafiəçi qismində səlahiyyətlərinə xitam vermək, habelə təqsirləndirilən şəxslərin qanuni mənafeləri arasında ziddiyyət olduqda onlardan ikisini və daha çoxunu müdafiə etmək;

92.10.4. başqa müdafiəçinin cinayət prosesində iştirakına və ya dəvət edilməsinə mane olmaq;

92.10.5. cinayət prosesində iştirak etmək üçün öz səlahiyyətlərini başqasına etibar etmək;

92.10.6. müdafiə etdiyi şəxsin razılığı olmadan hər hansı şəxsi şahid və ya ekspert qismində çağırmaq, şübhəli və ya təqsirləndirilən şəxsin hadisə ilə əlaqəsi, cinayət törətməkdə təqsiri olduğunu, zərər çəkmiş şəxslə barışdığını elan etmək, mülki iddianı tanımaq, müdafiə etdiyi şəxsin şikayətdən və ya ittiham hökmündən verdiyi şikayətdən imtina etmək.

92.11. Müdafiəçi bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakı vəzifələri yerinə yetirməlidir:

92.11.1. cinayət prosesində iştirak edərkən qanunun tələblərini rəhbər tutmaq; şübhəli və ya təqsirləndirilən şəxsin qanuni mənafeyinin müdafiəsini bütün qanuni üsullarla həyata keçirmək; onun vəziyyətində işin mümkün dərəcədə xeyrinə başa çatdırılması üçün müdafiə etdiyi şəxsə zəruri hüquqi məsləhətlər vermək və müdafiə tərəfin seçdiyi mövqe üzrə hərəkət etmək; vəkil sirrini qorumaq və vəkil andına riayət etmək;



92.11.2. cinayət prosesini həyata keçirən orqana müdafiəçi səlahiyyətlərini təsdiq edən sənədləri təqdim etmək, cinayət mühakimə icraatı zamanı vəkil etikasına riayət etmək;

92.11.3. şübhəli və ya təqsirləndirilən şəxsə hüquqi yardım göstərilməsi üçün cinayət prosesini həyata keçirən orqanın çağırışı ilə gəlmək;

92.11.4. müdafiə etdiyi şəxsin qanuni mənafeyinə zidd olmadıqda, həmin şəxsin razılığı ilə onda olan əşya və sənədləri cinayət prosesini həyata keçirən orqana təqdim etmək;

92.11.5. məhkəmə iclasında sədrlik edənin göstərişlərinə tabe olmaq;

92.11.6. məhkəmə iclasında sədrlik edənin icazəsi olmadan fasilə elan edilənədək məhkəmənin iclas zalını tərk etməmək;

92.11.7. məhkəmə iclasında qaydaya riayət etmək;

92.11.8. şəxsi həyatın toxunulmazlığına, ailə, dövlət, peşə, kommersiya və qanunla qorunan digər sirlərə toxunan hallar barədə məlumatları yaymamaq;

92.11.9. bu Məcəllədə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**Demokratik prinsiplər bu günümüzün, gələcəyimizim əsasını təşkil edəcəkdir.**

***<u>Heydər Əliyev</u>***

# Məhkəmədən sonrakı mərhələlər.

**Yazılı qərarların cıxarılması tələbi:**

CPM Maddə 349. **Məhkəmənin hökmünə dair irəli sürülən ümumi tələblər**

349.1. Məhkəmənin hökmü Azərbaycan Respublikasının adından çıxarılır.
349.2. Məhkəmənin hökmü ittihamedici, yaxud bəraətverici ola bilər.
349.3. Məhkəmənin hökmü qanuni və əsaslı olmalıdır.
349.4. Məhkəmənin hökmü Azərbaycan Respublikası Konstitusiyasının, bu Məcəllənin, Azərbaycan Respublikasının cinayət və digər qanunlarının tələblərinə riayət edilməklə çıxarıldıqda qanuni hesab edilir.
349.5. Aşağıdakı hallarda məhkəmənin hökmü əsaslı hesab edilir:
349.5.1. məhkəmənin gəldiyi nəticələr yalnız məhkəmə istintaqında tədqiq edilmiş sübutlara əsaslandıqda;
349.5.2. bu sübutlar ittihamın qiymətləndirilməsi üçün kifayət etdikdə;
349.5.3. məhkəmənin müəyyən etdiyi hallar onun tədqiq etdiyi sübutlara uyğun gəldikdə.



CPM Maddə 351. **Məhkəmənin ittiham hökmü**

351.1. Məhkəmənin ittiham hökmü təqsirləndirilən şəxsin cinayətin törədilməsində təqsirli bilinməsi və onun barəsində cəza tədbirinin tətbiq edilməsi (cinayət qanunu ilə bilavasitə nəzərdə tutulduğu hallarda onun barəsində cəzanın tətbiq edilməməsi və ya cəzadan azad edilməsi) barədə məhkəmə baxışının nəticələrinə dair yekun məhkəmə qərarını əks etdirir.
351.2. Məhkəmənin ittiham hökmü ehtimallara əsaslana bilməz və yalnız məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin təqsiri sübuta yetirildiyi halda çıxarılır.
351.3. Məhkəmə bu Məcəllənin 346.1.1—346.1.6-cı maddələrində göstərilən məsələlərə təsdiqedici cavab verdikdə, təqsirləndirilən şəxsin cinayətin törədilməsində təqsiri aşağıdakılar nəzərə alınmaqla sübuta yetirilmiş hesab edilə bilər:
351.3.1. təqsirsizlik prezumpsiyasını rəhbər tutaraq;
351.3.2. bu Məcəllədə nəzərdə tutulmuş qaydalar daxilində məhkəmə baxışında ittihamın baxılması nəticələrinə əsaslanaraq;
351.3.3. məhkəmə istintaqında tədqiq edilmiş mötəbər və mümkün sübutlara əsaslanaraq;
351.3.4. təqsirləndirilən şəxsin təqsirliliyinə dair aradan qaldırıla bilməyən şübhələri onun xeyrinə şərh edərək.

CPM Maddə 353. **Məhkəmə hökmünün məzmunu**

353.1. Məhkəmə hökmünün giriş hissəsində aşağıdakılar göstərilməlidir:
353.1.1. məhkəmə hökmünün Azərbaycan Respublikasının adından çıxarıldığı;
353.1.2. hökmün çıxarıldığı tarix, vaxt və yer;
353.1.3. hökmü çıxarmış məhkəmənin adı;

353.1.4. məhkəmənin tərkibi (hakimlərdən hər birinin soyadı, adı və atasının adı);

353.1.5. məhkəmə iclasının katibi (soyadı, adı və atasının adı);

353.1.6. dövlət ittihamçısı (soyadı, adı, atasının adı və vəzifəsi);

353.1.7. xüsusi ittihamçı (soyadı, adı və atasının adı);

353.1.8. müdafiəçi (soyadı, adı, atasının adı, daxil olduğu vəkillər kollegiyasının qurumu);

353.1.9. zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh və onların nümayəndələri (hər birinin soyadı, adı və atasının adı);

353.1.10. təqsirləndirilən şəxs (soyadı, adı, atasının adı, doğulduğu il, ay, gün və yer, ailə vəziyyəti, vətəndaşlığı, iş yeri, məşğuliyyəti, təhsili və onun şəxsiyyəti barədə digər məlumatlar);

353.1.11. təqsirləndirilən şəxsin məhkəməyə verildiyi cinayəti nəzərdə tutan cinayət qanununun maddəsi.

353.2. Məhkəmənin ittiham hökmünün təsviri-əsaslandırıcı hissəsində aşağıdakılar göstərilməlidir:

353.2.1. cinayətin törədilməsi yeri, vaxtı, üsulu, təqsirin xarakteri, törədilmə motivləri və nəticələri göstərilməklə məhkəmə tərəfindən sübuta yetirilmiş hesab edilən cinayət əməlinin təsviri;

353.2.2. məhkəmənin nəticəyə gəlməsi üçün əsaslandığı sübutlar və onun tərəfindən digər sübutların rədd edilməsinin motivləri;

353.2.3. təqsirli şəxsin məsuliyyətini ağırlaşdıran və ya yüngülləşdirən hallar;

353.2.4. ittihamın bir hissəsi əsassız hesab edildikdə, bunun əsasları;

353.2.5. təqsirli şəxsin hərəkətlərinin tövsifi məhkəmə tərəfindən dəyişdirildikdə bunun motivləri;

353.2.6. qərarların qəbul edilməsində məhkəmənin istina etdiyi qanunların normaları;

353.2.7. bu Məcəllənin 346.1.11—346.1.14-cü maddələrində nəzərdə tutulmuş məsələlərin həlli zamanı məhkəmənin gəldiyi nəticələrin motivləri;

353.2.8. əlavə cəza növünün təyin edilməsi haqqında qərarın motivləri;

353.2.9. mülki iddia və məhkəmə xərclərinin ödənilməsi barədə qərarın motivləri.

353.3. Məhkəmənin bəraət hökmünün təsviri-əsaslandırıcı hissəsində aşağıdakılar göstərilməlidir:

353.3.1. təqsirləndirilən şəxsin məhkəməyə verildiyi ittihamın mahiyyəti;

353.3.2. məhkəmə baxışı zamanı məhkəmə tərəfindən müəyyən edilmiş hallar;

353.3.3. məhkəmənin nəticəyə gəlməsi üçün əsaslandığı sübutlar və ittihamın əsaslandırılması üçün göstərilmiş sübutların onun tərəfindən rədd edilməsinin motivləri göstərilməklə təqsirləndirilən şəxsə bəraət verilməsi əsasları;

353.3.4. bəraət almış şəxsə cinayət təqibi orqanlarının qanunsuz hərəkətləri nəticəsində vurulmuş ziyanın, məhkəmə xərclərinin ödənilməsi məsələsi və mülki iddia üzrə qərarın motivləri.

353.4. Məhkəmənin ittiham hökmünün nəticəvi hissəsində aşağıdakılar göstərilməlidir:

353.4.1. təqsirləndirilən şəxsin soyadı, adı, atasının adı və onun cinayət qanununun konkret maddəsi ilə nəzərdə tutulmuş cinayətin törədilməsində təqsirli bilinməsi;

353.4.2. təqsirləndirilən şəxsə sübuta yetirilmiş hesab edilən hər bir cinayətə görə təyin edilmiş cəzanın növü və həddi;

353.4.3. çəkilməli olan yekun cəza tədbiri;

353.4.4. azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi üçün müəyyən edilmiş cəzaçəkmə və ya tərbiyə müəssisəsinin növü;

353.4.5. cəzaçəkmə müddətinin başlanğıcı;

353.4.6. şərti məhkum etmə tətbiq edildiyi halda sınaq müddətinin davam etdiyi müddət, şərti məhkum edilmiş şəxsin vəzifələri və şərti məhkum edilmiş şəxs üzərində nəzarətin həyata keçirilməsi həvalə edilən orqan və ya müəssisə;

353.4.7. müvafiq qərar qəbul edildikdə cinayət qanunu ilə nəzərdə tutulmuş əsaslarla təqsirləndirilən şəxsin cəzadan azad edilməsi;

353.4.8. təqsirləndirilən şəxsin həbsdə saxlanıldığı halda ibtidai həbs müddətinin cəzaçəkmə müddətinə daxil edilməsi;

353.4.9. cinayət qanununun müddəaları ilə nəzərdə tutulmuş hallarda əlavə cəza növünün təyin edilməsi;

353.4.10. mülki iddianın həlli və məhkəmə xərclərinin ödənilməsi (kimin və hansı məbləğdə ödəməsi);

353.4.11. maddi sübutların həlli;

353.4.12. məhkəmənin hökmü qanuni qüvvəyə minənədək məhkumun barəsində seçilmiş qətimkan tədbirinin həlli;

353.4.13. məhkəmə hökmünün qanuni qüvvəyə minməsi və ondan şikayət vermə qaydasının izahı.

## Apelyasiya şikayəti vermək hüququ

**AK Maddə 65. Məhkəməyə təkrar müraciət hüququ**

Məhkəmənin məhkum etdiyi hər bir şəxsin öz barəsində çıxarılmış hökmə qanunla nəzərdə tutulan qaydada yuxarı



məhkəmədə yenidən baxılması, habelə özünün əfv edilməsi və cəzasının yüngülləşdirilməsi haqqında müraciət etmək hüququ vardır.

CPM Maddə 7. **Cinayət-prosessual qanunvericiliyin əsas anlayışları**

7.0.11. **apellyasiya instansiyası məhkəməsi** — bu Məcəllə ilə müəyyən edilmiş qaydada və hallarda birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş hökmündən və ya digər qərarından verilmiş şikayət və ya protestlərə baxmaq səlahiyyətinə malik olan məhkəmədir;

7.0.12. **kassasiya instansiyası məhkəməsi** — bu Məcəllə ilə müəyyən edilmiş qaydada və hallarda birinci instansiya məhkəməsinin andlı iclasçıların iştirakı ilə çıxarılmış və ya apellyasiya instansiyası məhkəməsinin qanuni qüvvəyə minmiş hökmündən və ya digər qərarından verilmiş şikayət, protest, yaxud təqdimatlara baxmaq səlahiyyətinə malik olan məhkəmədir;

7.0.46. **protest** — dövlət ittihamçısının iştirak etdiyi cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə hökmdən və ya məhkəmənin digər qərarından prokurorun yuxarı məhkəməyə verilən şikayətidir.

CPM Maddə 9. **Cinayət mühakimə icraatının əsas prinsipləri və şərtlərinin təyinatı**

9.2. Bu Məcəllə ilə müəyyən edilmiş hallarda cinayət prosesi prinsiplərinin və ya şərtlərinin pozulması cinayət təqibi üzrə başa çatmış icraatın etibarsız sayılmasına, onun gedişində qəbul edilmiş qərarların ləğvinə, yaxud toplanmış materialların sübutedici qüvvəsinin olmaması qənaətinə gəlməyə səbəb ola bilər.

CPM Maddə 51. **Cinayət təqibi üzrə aparılan prosessual hərəkətlərin gedişinin və nəticələrinin protokollaşdırılmasının məcburiliyi**

51.7. Məhkəmə iclasının protokolu məhkəmə iclasında sədrlik edən və məhkəmə iclasının katibi tərəfindən məhkəmə iclası qurtardıqdan sonra 3 (üç) gün müddətində imzalanır. Bundan sonra məhkəmə tərəfindən onunla tanış olmaq hüququ olan şəxslərə 3 (üç) gün müddətində protokolla tanış olmaq imkanı yaradılır. Həmin şəxslər protokola dair yazılı qeydlərini verdiyi halda, məhkəmə iclasında sədrlik edən qeydlərə baxaraq onlarla razılaşdıqda öz imzası ilə qeydləri təsdiq edir, razılaşmadıqda isə bu barədə müvafiq qərar qəbul edir. Protokola edilən qeydlərlə razılaşıb-razılaşmamasından asılı olmayaraq, həmin qeydlərin özü və onlara dair qərar məhkəmənin iclas protokoluna əlavə edilməlidir.

CPM Maddə 387. **Apellyasiya şikayətinə və ya apellyasiya protestinə dair tələblər**

387.1. Apellyasiya şikayətində və ya apellyasiya protestində aşağıdakılar göstərilməlidir:

387.1.1. apellyasiya şikayətinin və ya apellyasiya protestinin ünvanlandığı apellyasiya instansiyası məhkəməsinin adı;

387.1.2. apellyasiya şikayətini və ya apellyasiya protestini verən şəxsin adı;

387.1.3. hökm və ya qərar çıxarmış birinci instansiya məhkəməsinin adı;

387.1.4. hökm və ya məhkəmənin digər yekun qərarının qısa məzmunu və apellyasiya şikayəti, yaxud protesti verən şəxsin mülahizələrinə görə onun qanunsuzluğunun, əsassızlığının yaxud ədalətsizliyinin nədən ibarət olması;



387.1.5. apellyasiya şikayəti və ya apellyasiya protesti verən şəxsin xahişi.

387.1.6. apellyasiya şikayətinə və ya apellyasiya protestinə əlavə olunan sənədlərin siyahısı.

387.2. Hökmün dəyişdirilməsi və ya ləğv edilməsinin zəruriliyi əsaslandırıldıqda apellyasiya şikayətində və ya apellyasiya protestində işin müvafiq vərəqlərinə istinad olunmalıdır. Bu tələb həbsdə saxlanılan məhkuma və yetkinlik yaşına çatmamış şəxsə şamil edilmir.

387.3. Apellyasiya şikayəti və ya apellyasiya protesti yazılı şəkildə verilir və onu verən şəxs tərəfindən imzalanır.

387.4. Qanuni nümayəndənin və ya nümayəndənin səlahiyyətlərini təsdiq edən sənəd cinayət işində, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarında və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat materiallarında olmadıqda qanuni nümayəndənin və ya nümayəndənin verdiyi apellyasiya şikayətinə onların səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.

387.5. Apellyasiya şikayətində və ya apellyasiya protestində birinci instansiya məhkəməsinə təqdim edilməmiş yeni sübutlara istinad edilməsinə yalnız həmin sübutların birinci instansiya məhkəməsinə təqdim edilməsinin mümkünsüzlüyünün və ya onların həmin məhkəmə tərəfindən qəbul edilməməsinin əsaslandırıldığı halda yol verilir.

CPM Maddə 399. **Birinci instansiya məhkəməsinin hökm və ya qərarının ləğv edilməsi və ya dəyişdirilməsi üçün əsaslar**

399.1. Apellyasiya şikayətinin və ya apellyasiya protestinin baxışının nəticələri üzrə birinci instansiya məhkəməsinin hökm və ya qərarının ləğv edilməsi və ya dəyişdirilməsi üçün əsaslar aşağıdakılardır:

399.1.1. məhkəmənin gəldiyi nəticələr üzrə mühüm

əhəmiyyət kəsb edən bütün faktiki halların araşdırılmaması;

399.1.2. məhkəmənin gəldiyi nəticələrin işin faktiki hallarına uyğun olmaması;

399.1.3. birinci instansiya məhkəməsi tərəfindən müəyyən edilmiş iş üçün əhəmiyyətli olan halların sübuta yetirilməməsi;

399.1.4. cinayət qanunu normasının düzgün tətbiq edilməməsi;

399.1.5. təyin edilmiş cəzanın cinayətin ağırlığına və ya məhkumun şəxsiyyətinə uyğun olmaması.

399.2. Apellyasiya instansiyası məhkəməsi bəraət hökmünü yalnız təqsirləndirilən şəxsin hüquqlarının əhəmiyyətli dərəcədə pozulmasına əsaslanaraq dəyişdirə bilməz.

399.3. İşin bütün hallarının araşdırılması nəticəsində çıxarılmış və mahiyyətcə düzgün olan birinci instansiya məhkəməsinin hökm və ya qərarı yalnız bu Məcəllənin tələblərinin pozulması səbəbindən formal mülahizələrə əsaslanaraq ləğv edilə bilməz.

CPM Maddə 461. **Məhkəmənin hökm və ya qərarlarına yeni açılmış hallar üzrə baxılması üçün əsaslar**

461.0. Məhkəmənin hökm və ya qərarlarına yeni açılmış hallar üzrə baxılması üçün əsaslar aşağıdakılardır:

461.0.1. düzgün olmayan (səhv) hökm və ya qərarın çıxarılmasına səbəb olan zərər çəkmiş şəxsin, şahidin bilə-bilə yalan ifadə verməsi, ekspertin bilə-bilə yalan rəy verməsi, tərcüməçinin bilə-bilə yalan tərcümə etməsi, maddi sübutların, istintaq və məhkəmə hərəkəti protokollarının və digər sənədlərin saxtalığının məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarı ilə müəyyən edilməsi;

461.0.2. cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı təhqiqatçının, müstəntiqin, prokurorun və ya hakimin məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarı ilə müəyyən edilmiş sui-istifadələrinin düzgün olmayan (səhv) hökm və ya qərarın çıxarılmasına səbəb olması;



461.0.3. Özü-özlüyündə və ya əvvəllər müəyyən edilmiş digər hallarla birlikdə məhkumun təqsirsizliyinə və ya onun məhkum olunduğu cinayət əməlindən ağırlıq dərəcəsinə görə fərqlənən cinayət törətməsinə, yaxud bəraət almış və ya barəsində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verildiyi şəxsin təqsirliliyinə dəlalət edən, hökm və ya qərarın çıxarılması zamanı məhkəməyə və cinayət prosesinin tərəflərinə məlum olmayan digər hallar.

CPM Maddə 462. **Yeni açılmış hallar üzrə baxılması mümkün olan hökm və ya qərarlar**

462.0. Yeni açılmış hallar üzrə aşağıdakı qanuni qüvvəyə minmiş hökm və ya məhkəmənin digər qərarlarına baxıla bilər:

462.0.1. ittiham hökmü;

462.0.2. bəraət hökmü;

462.0.3. cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verilməsi haqqında qərar;

462.0.4. tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qərar;

462.0.5. tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qərar.

# ƏLAVƏLƏR

## Hakimlərin davranış məcəlləsi

12 dekabr 2002-ci ildə Məhkəmə Hüquq Şurası
və Ali Məhkəmənin Plenumu tərəfindən
təsdiq olunmuşdur

**Maddə 1**
Hakim bütün fəaliyyət dövründə dövlətin, vətəndaşın və ədalət mühakiməsinin qarşısında onun məsuliyyətini təcəssüm etdirən hakim andına sadiq olmalı və səlahiyyətini həyata keçirərkən eləcə də işdən kənar həyatda bu anda uyğun olan davranış nümayiş etdirməlidir.

**Maddə 2**
Hakim ədalət mühakiməsini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarmı, ümumqəbuledilmiş ədəb qaydalarını rəhbər tutmalı, məhkəmə hakimiyyətinin müstəqilliyini və sərbəstliyini qoruyub saxlamalı, onun nüfuzunu daim artırmalıdır.

**Maddə 3**
Hakim qanunların tələblərinə dəqiq və dönmədən əməl etməli, faktlara əsaslanmalı, məhkəmə fəaliyyətinin mənəvi və tərbiyəvi təsirini təmin etməli, ədalətli və qərəzsiz olmalıdır.

**Maddə 4**
Hakimin ədalət mühakiməsini həyata keçirmək sahəsindəki vəzifələri onun bütün başqa sahələrdə olan fəaliyyətinə nisbətdə üstünlük təşkil etməlidir.



**Maddə 5**
Hakim hər bir şəraitdə öz ləyaqətini, şərəfini qorumalı, ədalət mühakiməsinin nüfuzuna, hakimin yüksək adına, şərəf və ləyaqətinə xələl gətirən hər hansı hərəkətdən və şəxsi münasibətlərdən çəkinməlidir.

**Maddə 6**
Hakim qərəzsiz olmalı, məhkəmə icraatına hər ! hansı şəxs, o cümlədən, qohum, dost və tanışlar tərəfindən müdaxilə edilməsinə yol verməməlidir.

**Maddə 7**
Hakim işlərin baxılmasında hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi prinsipini gözləməli, proses iştirakçılarından heç birinə üstünlük verməməlidir.

**Maddə 8**
Hakim hər hansı hakimiyyət və idarəçilik strukturlarının, habelə ayrı-ayn şəxslərin təsiri altına düşməməli, məhkəmədə baxılan iş ətrafında yaranmış ictimai fikirdən çıxış etməməli və tənqidlərdən çəkinməməlidir.

**Maddə 9**
Ədalət mühakiməsini lazımi qaydada həyata keçirmək üçün hakim hüquqi biliklərini və peşəkarlıq səviyyəsini daim artırmalıdır.

**Maddə 10**
Hakim, özü-özünə qarşı tələbkar olmalı, üzərinə düşən vəzifələri vicdanla yerinə yetirməli, işlərə və digər materiallara vaxtında baxmalıdır. İstər qulluq vəzifələrini yerinə yetirərkən, istərsə də məişətdə özünü təmkinli, ciddi, ədəbli və səmimi aparmalı, bunları məhkəmə aparatı işçilərindən də tələb etməlidir.

**Maddə 11**
Hakim vəzifələrinin icrası ilə bağlı ona məlum olan sirlər barədə məlumatlan yaymamalıdır. Başa çatmamış məhkəmə işləri ilə əlaqədar faktlar barədə və yaxud məhkəmə baxışına təyin olunmuş işlər haqqında şərhlər, izahlar verməməli, ictimaiyyət və jurnalistlərlə görüşlərdə bu və ya digər məhkəmə işi barədə konkret fikrini bildirməməlidir. İşdən kənarda qanuni qüvvəyə minmiş məhkəmə qərarlarını və digər hakimlərin hərəkətlərini şübhə altında qoymamalıdır.

**Maddə 12**
Hakim məhkəmədə baxılan işlər üzrə müşavirə otağının sirrini qorumalı, qapalı məhkəmə iclaslarında müəyyən olunmuş məlumatları gizli saxlamalıdır.

**Maddə 13**
Hakim baxılan işlər üzrə istər məhkəmə iştirakçıları, istərsə də digər məhkəmə instansiyaları ilə qanunda nəzərdə tutulmayan qeyri-prosessual münasibət yaratmamalıdır.

**Maddə 14**
Hakim onun qərəzsizliyinə əsaslı şübhə yarada biləcək hallar olduqda özünü icraatında olan işin baxılmasından kənarlaşdırmalıdır.

**Maddə 15**
Hakim müstəqil olmalı, hər bir konkret iş üzrə öz qərarını sərbəst olaraq işin hərtərəfli, tam və obyektiv araşdırılması nəticəsində, özündə yaranan daxili inamına əsaslanmaqla, onunla bir tərkibə daxil olan digər hakimlərin mövqeyindən asılı olmadan qəbul etməlidir.



**Maddə 16**
Hakimlər KİV-nin məhkəmənin fəaliyyətini işıqlandırmaq istəyinə rəğbətlə yanaşmalı və əgər bu işıqlandırma məhkəmə prosesinin gedişinə maneçilik törətməzsə, habelə əldə edilən informasiya məhkəməyə təsir göstərmək vasitəsi kimi istifadə edilmezse, iş üzrə tərəflərin rəyi nəzərə alınmaqla KİV nümayəndələrinə müvafiq yardım göstərməlidir.

**Maddə 17**
Hakim qulluq səlahiyyətlərindən istifadə edərək öz şəxsi və yaxud ailə üzvlərinin maraqlarını güdməyə və müdafiə etməyə haqlı deyildir. O, özünü elə aparmalıdır ki, onun ailə, ictimai və s. münasibətləri tutduğu vəzifəyə xələl gətirməsin.

**Maddə 18**
Hakim baxdığı işlə əlaqədar olaraq təşəkkür əlaməti kimi hədiyyə, sovqat və bəxşiş qəbul etməməli, işin həllinə təsir edə bilən xidmətlərdən çəkinməlidir.

**Maddə 19**
Hakimin professional fəaliyyətdən kənar davranışı onun ədalətli, obyektiv ve qərəzsiz olmasına kölgə salmamalıdır.

**Maddə 20**
Hakim heç bir seçkili və ya təyinatlı vəzifələr tuta bilməz, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməz.

**Maddə 21**
Hakim məhkəmə hakimiyyətinin nüfuzuna və professional fəaliyyətinə zərər gətirməyən ictimai fəaliyyətlə məşğul ola bilər.

**Maddə22**
Hakim hüquq sistemi ilə bağlı və ya ədalət mühakiməsi prosesini həyata keçirərkən, yalnız o hallarda ictimai müzakirələrdə iştirak edə və ya qanunverici, icra orqanları və onların vəzifəli şəxsləri ilə münasibət qura bilər ki, bu onun vəzifə borcunu yerinə yetirməyə mane olmasın, obyektivliyi barədə şübhə doğurmasın.

**Maddə 23**
Hakim ictimaiyyət qarşısında daxili siyasətin cari məsələləri ilə əlaqədar olaraq öz fikrini bildirməməli, siyasi aksiyalarda iştirak etməməli, partiyalara maddi və digər dəstək verməməli, qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna edilməklə təşviqatla məşğul olmamalı, onun bu və ya digər ideoloji təsirə məruz qalmasına dəlalət edən hərəkətlərdən çəkinməlidir.

**Maddə 24**
Hakim professional fəaliyyətində və ya digər hərəkətlərində pozuntuya yol verdikdə toxunulmazlığı təmin edilməklə qanunvericiliklə məsuliyyət daşıyır.

**Maddə 25**
Bu kodeksin tələblərinin pozulması hallan bütün təfərrüatı ilə araşdırılır, hakim adına xələl gətirən hərəkətlərə yol verilməsi müəyyən edildikdə qanunvericiliyə müvafiq tədbirlər görülür.

**Maddə 26**
Hakim, onun yüksək adına ləkə gətirən ləyaqətsiz hərəkətə yol verdikdə, məhkəmə hakimiyyətinin nüfuzuna xələl gətirdikdə, onun səlahiyyətlərinə «Məhkəmələr və hakimlər haqqında» qanunun tələblərinə əsasən xitam verilə bilər.



## Etirazlar

**Məhkəmə qərarı qəbuledilən sübutlara əsaslanmalıdır. Etirazlar vasitəsilə sübutlara dair iradların səsləndirilməsinə və həll edilməsinə nail olmaq olar. Ola bilər :**

- Vəkilin sualları
- Şahidin ifadələri
- Sübutun təqdim və istifadə olunması
- Hakimin davranışı

### Etirazın məqsədi:

- Qərəzli sübutları çıxarmaq üçün
- Protokola salmaq üçün
- Qeyri qanuni rəftarın qarşısını almaq üçün
- Ədalətsiz taktikaya diqqət cəlb etmək üçün

## Etiraz etmək qərarı:

Etiraz edilmiş sübut işə əlavə ediləcək?
Etirazınız qəbul edilməsə, gələn dəfə edilə bilər?
Başqa yollarla buna nail olmaq olar?

### Etirazı necə etmək

- Taktika:etiraz etdiyim məsələ haradasa qaldırılacaq?
- Etiraz etməli yoxsa...
- Etiraz edirsinizsə ayaqa durun və diqqəti cəlb edin

## Necə cavab verməli

- Nə isə demək istəyəndə...hakimə hörmətlə izah edin nəyə görə bu arqument vacibdir
- Hakimə deyin nəyə görə bu qəbuledilləndir
- Şərti təklif
- Onun əsasında

| **MƏHKƏMƏDƏ ETİRAZ**<br>**AR Kons. m. 127 (VİI); CPM 32** | **Azərbaycan Respublikası Konstitusiyası** | **Azərbaycan CPM** |
|---|---|---|
| **Etiraz etmək hüququ** | 127 | 92.9.7; 92.9.<br>92.9.6; 92.9.23 |
| **Açılış (CPM 85.6.10; 92.9.14; 92.9.22)** | | |
| Arqument | m. 12, 46 | 13.1 |
| • Zərərli/qəbuledilməz sübutlar | | 2.3; 310.2.9 |
| **Birbaşa dindirmə** | | |
| Yönəldici | | 28.4.1 |
| Əsassız sübutlara qarşı | m. 63 | 28.4.1; 124.1; 125.2.9 |
| Şəxsən məlum olmayan | 127(İI) | 126.2 |
| Aidiyyəti olmayan<br>• Vaxtın itirilməsi<br>• Bu işə aid | 127(İI) | 126.2 |
| **Çarpaz** | | |
| Arqumentli | Art. 13 | 2.4 |
| Sübutu olmayan faktlara əsasən | 127 | 15.2.3 |
| Şübhəli/mürəkkəb | 127 | 15.2.3 |
| Birbaşadan kənara cıxan | 127 | |
| **Yekun cıxışı (CPM 340.1)** | | |
| Sui istifadə<br>• Sübutlardan<br>• Zərərverici | m. 12<br>46, 127(İI) | 13<br>2.4, 2.3;<br>310.2.9 |



## Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 310-cu maddəsi- Məhkəmə iclasında qaydanın təmin edilməsi

310.1. Məhkəmə baxışı zamanı məhkəmənin iclas zalına daxil olmasından əvvəl məhkəmə nəzarətçisi elan edir:

«Məhkəmə gəlir». Bundan dərhal sonra məhkəmə iclasında iştirak edən bütün şəxslər ayağa qalxmalıdırlar və yalnız məhkəmə öz yerini tutduqdan sonra onlar öz yerlərini tuta bilərlər.

310.2. Məhkəmə baxışında iştirak edən və ya məhkəmə iclasında olan bütün şəxslər aşağıdakı vəzifələri yerinə yetirməlidirlər:

310.2.1. məhkəmə iclasında sədrlik edənin bütün göstərişlərini və məhkəmə nəzarətçisinin onlara əsaslanan tələblərini yerinə yetirmək;

310.2.2. məhkəmə iclası zamanı sakitliyə və təmizliyə riayət etmək;

310.2.3. yerlərindən qalxmamaq və məhkəmə iclası zalında gəzməmək;

310.2.4. yalnız məhkəmə iclasında sədrlik edənin icazəsi ilə foto, kino, audio, video, kompüter və digər yazan texniki vasitələrdən istifadə etmək;

310.2.5. yalnız məhkəmə iclasında sədrlik edənin icazəsi ilə danışmaq, vəsatətlər qaldırmaq və ya etirazlar etmək;

310.2.6. məhkəmə iclasında sədrlik edən müraciət etdikdə qalxmaq və yalnız onun icazəsi ilə əyləşmək;

310.2.7. məhkəməyə «hörmətli məhkəmə», hakimə isə «hörmətli hakim» sözləri ilə müraciət etmək;

310.2.8. məhkəmə iclasında çıxış edən şəxslərin çıxışını kəsməmək, şərh etməmək və ya onların ünvanına atmacalar atmamaq;

310.2.9. təhqiredici və nalayiq ifadə və hərəkətlərdən, habelə təqsirləndirilən və ya zərər çəkmiş şəxsin, şahidin və cinayət prosesinin digər iştirakçılarının dindirilməsi zamanı yönəldici suallardan çəkinmək.

310.3. Məhkəmənin açıq iclasında iştirak etmək arzusunda olan şəxslər iclas zalına iclasdan əvvəl və ya iclaslararası tənəffüsdə zalda boş yerlərin olduğu halda buraxılırlar. 16 yaşından aşağı olan şəxslər tərəf və ya şahid olmadıqda məhkəmə iclası zalına buraxılmırlar. Məhkəmə iclasının keçirilməsi zamanı təhlükəsizliyin təmin edilməsi məqsədi ilə məhkəmə iclasında sədrlik edənin göstərişi əsasında iclas zalına buraxılan şəxslərin şəxsiyyətlərini təsdiq edən sənədləri və əşyaları yoxlanıla bilər.

310.4. Məhkəmə iclasında qaydanın təmin edilməsi məhkəmə nəzarətçisinə həvalə edilir. Məhkəmə nəzarətçisi bu Məcəllənin 310.2.1 - 310.2.9-cu maddələrində göstərilən qaydalardan kənara çıxmağa yalnız məhkəmə iclasında sədrlik edənin icazəsi ilə yol verilməsinə nəzarət edir və ola biləcək pozuntuların qarşısını alır.

310.5. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda məhkəmə iclasının keçirilməsi zamanı məhkəməyə hörmətsizlik göstərilməsi təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün əsasdır.

310.6. Dövlət ittihamçısı və müdafiəçi istisna olmaqla, məhkəmə iclasında qaydanı kobud surətdə pozan şəxslər barəsində əvvəlcə edilmiş xəbərdarlıqdan sonra məhkəmənin qərarı əsasında aşağıdakı tədbirlər görülə bilər:

310.6.1. minimum əmək haqqı məbləğinin əlli mislinə-



dək miqdarda cərimə;

310.6.2. 3 saatdan 48 saatadək müddətə tutma;

310.6.3. məhkəmə baxışının bütün müddətinə və ya bu müddətin bir hissəsinə məhkəmənin iclas zalından xaric etmə.

310.7. Məhkəmənin qərarı ilə məhkəmə iclasına yenidən buraxılmış cinayət prosesinin iştirakçısı onun olmadığı dövrdə aparılmış prosessual hərəkətlərlə tanış olmaq hüququna malikdir.

Voir Note explicative Numéro de dossier
See Explanatory Note File-number
İzahedici Təlimata bax (AZE) Ərizə nömrəsi

# COUR EUROPÉENNE DES DROITS DE L.HOMME

# *EUROPEAN COURT OF HUMAN RIGHTS*

# AVROPA INSAN HÜQUQLARI MƏHKƏMƏSI

Conseil de l.Europe - *Council of Europe*- Avropa Şurası
Strasbourg, France

## REQUÊTE

## *APPLICATION*

## ƏRIZƏ

présentée en application de l.article 34 de la Convention européenne des Droits de l.Homme, ainsi que des articles 45 et 47 du Règlement de la Cour
*under Article 34 of the European Convention on Human Rights and Rules 45 and 47 of the Rules of Court*
Insan Hüquqları haqqında Konvensiyanın 34-cü və Məhkəmə Qaydalarının 45 və 47-ci maddələrinə müvafiq olaraq

**IMPORTANT:** La présente requête est un document juridique et peut affecter vos droits et obligations.
*This application is a formal legal document and may affect your rights and obligations.*
*Bu ərizə rəsmi hüquqi sənəddir və hüquq və vəzifələrinizə toxuna bilər.*

I - LES PARTIES
*THE PARTIES*
TƏRƏFLƏR

A. LE REQUÉRANT/LA REQUERANTE
*THE APPLICANT*
ƏRIZƏÇI

(Renseignements à fournir concernant le requérant/la requérante et son/sa représentant(e) éventuel(le))
*(Fill in the following details of the applicant and the representative, if any)*
(Ərizəçi və əgər varsa, onun nümayəndəsi haqqında məlumat)

1. Nom de famille ................. 2. Prénom (s) ...................
*Surname First name (s)*
Soyadı Adı
Sexe: masculin/féminin
*Sex: male/female*
Cinsi : kişi/qadın
3. Nationalité .................. 4. Profession ........................
*Nationality Occupation*
Vətəndaşlığı Məşğuliyyəti
5. Date et lieu de naissance ......................................
*Date and place of birth*
Doğum tarixi və yeri
6. Domicile .............................................
Permanent address
Daimi ünvan
7. Tel. N°/Telefon nömrəsi..............................................
8. Adresse actuelle (si différente de 6.) ................................
*Present address (if different from 6.)*
Hazırkı ünvan (6-cı bənddən fərqlidirsə)
9. Nom et prénom du/de la représentant(e)* ..............................
*Name of representative**
Nümayəndənin adı/soyadı*
10. Profession du/de la représentant*(e)* ..................................
*Occupation of representative*
Nümayəndənin məşğuliyyəti
11. Adresse du/de la représentant(e) ...................................
*Address of representative*
Nümayəndənin ünvanı
12. Tel. N°/Telefon nömrəsi............ Fax N°/Faks nömrəsi................

B. LA HAUTE PARTIE CONTRACTANTE
*THE HIGH CONTRACTING PARTY*
*RAZILIĞA GƏLƏN YÜKSƏK TƏRƏF*

(Indiquer ci-après le nom de l.Etat/des Etats contre le(s)quel(s) la requête est dirigée)
*(Fill in the name of the State(s) against which the application is directed)*
(Hansı dövlətə (dövlətlərə) qarşı şikayət edirsiniz)
13. .................................................

* Si le/la requérant(e) est représenté(e), joindre une procuration signée par le/la requérant(e) en faveur du/de la représentant(e).
A form of authority signed by the applicant should be submitted if a representative is appointed.
Əgər nümayəndə təyin olunursa, ərizəçi tərəfindən imzalanmış vəkalətnamə təqdim olunmalıdır.

II - EXPOSÉ DES FAITS
*STATEMENT OF THE FACTS*
FAKTLARIN İFADƏSI
(Voir chapitre II de la note explicative)
*(See Part II of the Explanatory Note)*
(Izahedici Təlimatın II Bölməsinə bax)
14.
Si nécessaire, continuer sur une feuille séparée
*Continue on a separate sheet if necessary*
Zərurət varsa, ayrıca vərəqdə davam edin

III - EXPOSÉ DE LA OU DES VIOLATION(S) DE LA CONVENTION ET/OU DES
PROTOCOLES ALLÉGUÉE(S), AINSI QUE DES ARGUMENTS À L.APPUI
*STATEMENT OF ALLEGED VIOLATION(S) OF THE CONVENTION AND/OR PROTOCOLS*
*AND OF RELEVANT ARGUMENTS*
**ZƏNN ETDİYİNİZ KONVENSİYA VƏ/VƏ YA PROTOKOL POZUNTUSUNUN (POZUNTULARININ) İFADƏSİ VƏ MÜVAFİQ DƏLİLLƏRİN GƏTİRİLMƏSİ**
(Voir chapitre III de la note explicative)
*(See Part III of the Explanatory Note)*
(İzahedici Təlimatın III Bölməsinə bax)
15.

IV - EXPOSÉ RELATIF AUX PRESCRIPTIONS DE L.ARTICLE 35 § 1 DE LA CONVENTION
*STATEMENT RELATIVE TO ARTICLE 35 § 1 OF THE CONVENTION*
**KONVENSİYANIN 35-Cİ MADDƏSİNİN 1-Cİ BƏNDİNƏ UYĞUN İFADƏ**
(Voir chapitre IV de la note explicative. Donner pour chaque grief, et au besoin sur une feuille séparée, les renseignements demandés sous les points
16 à 18 ci-après)
*(See Part IV of the Explanatory Note. If necessary, give the details mentioned below under points 16 to 18 on a separate sheet for each separate*
*complaint)*
(Izahedici Təlimatın IV Böməsinə bax. Zərurət varsa, ayrıca vərəqdə aşağıdakı 16-18-ci bəndlərdə göstərilən məlumatı hər şikayət üçün ayrıca
verin)
16. Décision interne définitive (date et nature de la décision, organe - judiciaire ou autre . l.ayant rendue)



*Final decision (date, court or authority and nature of decision)*
Son ölkədaxili qərar (qərarın tarixi, məhkəmə və ya səlahiyyətli orqanın adı və qərarın xarakteri)
17. Autres décisions (énumérées dans l.ordre chronologique en indiquant, pour chaque décision, sa date, sa nature et
l.organe - judiciaire ou autre - l.ayant rendue)
*Other decisions (list in chronological order, giving date, court or authority and nature of decision for each of them)*
Digər qərarlar (xronoloji qaydada hər qərarın tarixini, məhkəmə və ya səlahiyyətli orqanın adını və qərarın xarakterini sadalayın)
18. Dispos(i)ez-vous d.un recours que vous n'avez pas exercé? Si oui, lequel et pour quel motif n.a-t-il pas été exercé?
*Is there or was there any other appeal or other remedy available to you which you have not used? If so, explain why*
*you have not used it.*
Istifadə etmədiyiniz apellyasiya, yaxud basqa bir mövcud hüquqi müdafiə vasitəsi qalıbmı? Əgər qalıb isə, ondan nə üçün istifadə etmədiyinizi izah edin.
Si nécessaire, continuer sur une feuille séparée
*Continue on a separate sheet if necessary*
*Zərurət varsa, ayrıca vərəqdə davam edin*

V - EXPOSÉ DE L'OBJET DE LA REQUÊTE
*STATEMENT OF THE OBJECT OF THE APPLICATION*
**ŞİKAYƏTİN MƏQSƏDİNİN İFADƏSİ**
(Voir chapitre V de la note explicative)
*(See Part V of the Explanatory Note)*
(Izahedici Təlimatın V Bölməsinə bax)
19.
VI - AUTRES INSTANCES INTERNATIONALES TRAITANT OU AYANT TRAITÉ L.AFFAIRE
*STATEMENT CONCERNING OTHER INTERNATIONAL PROCEEDINGS*
**DİGƏR BEYNƏLXALQ İNSTANSİYALARA DAİR MƏLUMAT**
(Voir chapitre VI de la note explicative)
*(See Part VI of the Explanatory Note)*
(İzahedici Təlimatın VI Bölməsinə bax)
20. Avez-vous soumis à une autre instance internationale d.enquête ou de règlement les griefs énoncés dans la présente

requête? Si oui, fournir des indications détaillées à ce sujet.
*Have you submitted the above complaints to any other procedure of international investigation or settlement? If so, give full details.*
Yuxarıdakı şikayəti hər hansı digər bir beynəlxalq araşdırma və ya tənzimləmə instansiyasına təqdim etmisinizmi?
Əgər etmisinizsə, bununla bağlı tam məlumat verin.

VII - PIÈCES ANNEXÉES **(PAS D'ORIGINAUX,**
*LIST OF DOCUMENTS* **UNIQUEMENT DES COPIES)**
SƏNƏDLƏRİN SIYAHISI ***(NO ORIGINAL DOCUMENTS, ONLY PHOTOCOPIES)***
***(SƏNƏDLƏRİN ƏSLİ YOX, YALNIZ FOTOSURƏTLƏRİ OLMALIDIR, SƏNƏDLƏRİ BİR BİRİNƏ BƏNDLƏMƏYİN, YAPIŞTIRMAYIN VƏ TİKMƏYİN)***

(Voir chapitre VII de la note explicative. Joindre copie de toutes les décisions mentionnées sous ch. IV et VI ci-dessus. Se procurer, au besoin, les copies nécessaires, et, en cas d.impossibilité, expliquer pourquoi celles-ci ne peuvent pas être obtenues. Ces documents ne vous seront pas retournés.)
*(See Part VII of the Explanatory Note. Include copies of all decisions referred to in Parts IV and VI above. If you do not have copies, you should obtain them. If you cannot obtain them, explain why not. No documents will be returned to you.)*
(İzahedici Təlimatın VII Bölməsinə bax. Yuxarıdakı IV və VI Bölmələrdə göstərilən bütün qərarların surətlərini əlavə edin. əgər sənədlərin surətləri sizdə yoxdur, onları əldə etməlisiniz. Əldə edə bilmirsinizsə, səbəbini izah edin. Heç bir sənəd sizə geri qaytarılmayacaq)

21. a).........................................................................................
b)...........................................................................................
c)...........................................................................................

VIII - DÉCLARATION ET SIGNATURE
*DECLARATION AND SIGNATURE*
**BƏYANAT VƏ İMZA**



(Voir chapitre VIII de la note explicative)
*(See Part VIII of the Explanatory Note)*
(İzahedici Təlimatın VII Bölməsinə bax)

22. Je déclare en toute conscience et loyauté que les renseignements qui figurent sur la présente formule de requête sont exacts.
*I hereby declare that, to the best of my knowledge and belief, the information I have given in the present application form is correct*.
Bununla bəyan edirəm ki, mənim tam bilik və inamıma görə hazırkı ərizədə verdiyim məlumat həqiqətə uyğundur.

Lieu/*Place*/Yer .......................................................................
Date/*Date*/Tarix ....................................................................
(Signature du/de la requérant(e) ou du/de la représentant(e))
*(Signature of the applicant or of the representative)*
(Ərizəçinin və ya nümayəndənin imzası)